# XƏZƏR XƏBƏR

KHAZAR REVIEW

№ 429 İyun 2023



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org



# “Xəzər”də imtahan həyəcanları







# Exams Thrill At Khazar University





# İÇİNDƏKİLƏR

Xəzər Universiteti Azərbaycandan bütün sahələr üzrə ən yüksək nəticə göstərən universitetdir......6
Nailəxanım Muzeyi: "Tarixdə iz salan, Azərbaycan mədəniyyətinə töhfə verən qadınlar" seriyasının 2-ci kitabı - "Süreyya Ağaoğlu və Tezer Ağaoğlu (Taşkıran)"....................7
Nailəxanım İsayevanın "Xoşbəxtlik göydən düşmür..." adlı kitabı çap olunub....................8
İstanbul Aydın Universitetinin, Manisa Celal Bayar Universitetinin və Kütahya Dumlupınar Universitetinin nümayəndələri "Xəzər"də....................10
Erasmus Tələbə Təşkilatının məlumat sessiyası ....................13
"Xəzər"in departament müdiri Qafqaz Regional Ekoloji Mərkəzi Elmi şurasının üzvü seçilmişdir....................14
"Xəzər"in əməkdaşları "Nikahın xitamı ilə bağlı ailə qanunvericiliyinin tətbiqi sahəsində mövcud vəziyyət" mövzusunda keçirilmiş konfransda....................15
Siyasi elmlər və fəlsəfə departamenti müəlliminin seminarı ....................16
Karyera Mərkəzi və "Davam": "Davamçı ol" ....................17
Xəzər Universitetində "İndoneziya günü" ....................18
Xəzər Universitetinin təsisçisi Hindistanın Azərbaycandakı səfiri ilə görüşmüşdür....................19
Fulbrayt qonaq tədqiqatçılar üçün yolasalma tədbiri ....................20
Xəzər Universitetinin təsisçisi Qazaxıstanın Azərbaycandakı səfiri ilə görüşmüşdür ....................21
Azərbaycan Xalq Cümhuriyyəti tələbələrin təqdimatında: dəyirmi masa....................22
Expressbankın "Gənc Bankirlər" Proqramı çərçivəsində ustad dərsi....................24
"Xəzər"in "Brend tələbə" lərinə sertifikat təqdim olundu ....................26
Xəzər Universitetinin İnformasiya texnologiyaları şöbəsinin direktoru AKTA-ya üzv seçilib ....................28
KİM-in direktor müavini Sabançı Universitetində....................29
Xəzər Universiteti rektorunun Meksika səfiri və meksikalı deputatla görüşü....................30
Milli Hidrometeorologiya Xidmətində "Meteorologiya və iqlimşünaslıq" fənni üzrə dərs ....................31
"Xəzər"in tələbəsinə "Patriots Awards" təqdim olunub....................32
Xəzər Universitetinin Çin Tədqiqatlar Mərkəzinin "Çinə dair mühazirələr" layihəsi çərçivəsində ilk seminarı....................35
Xəzər Universitetində növbəti Karyera Sərgisi ....................36
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri....................38
*Hamlet İsaxanlı*. Atın dastanı ....................40
Xəzər Universitetində 3-cü Beynəlxalq Vahid Sağlamlıq Konfransı keçirildi ....................66
"Xəzər"in beynəlxalq əlaqələri ....................70
"Xəzər"in prorektoru hüquq üzrə qonaq professor vəzifəsinə təyin olunub....................76
"Xəzər" ölkə mediasında....................77

1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan
Şahin Fazil

**İngilis dilində mətnlərin redaktoru:**
Zamirə Qurbanova

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

Khazar University - the Highest Performing University in All Spheres from Azerbaijan ........ 6
The 2nd Book of the Series "Women Who Made a Mark in History and Contributed to Azerbaijani Culture" Published ........ 7
The book "Happiness Does Not Fall from the Sky..." by Nailekhanim Isayeva Published ........ 8
Representatives of Istanbul Aydın University, Manisa Celal Bayar University and Kutahya Dumlupınar University at Khazar University ........ 10
Information Session of Erasmus Student Organization ........ 13
Department Head of Khazar University Elected a Member of the Scientific Council of Regional Environmental Centre for the Caucasus ........ 14
Khazar University Staff Members at the Conference on " The Current Cituation in the Field of Application of Family Legislation Related to the Termination of Marriage" ........ 15
Seminar by the Lecturer of Political Science and Philosophy Department ........ 16
Career Center and "Davam" Youth Movement : "Become a Follower" ........ 17
"Indonesia Day" at Khazar University ........ 18
Khazar University Founder Meets with the Ambassador of India to Azerbaijan ........ 19
Farewell Event For Fulbright Visiting Scholars ........ 20
Khazar University Founder Meets with the Ambassador of Kazakhstan to Azerbaijan ........ 21
Azerbaijan Democratic Republic at the Presentation of Students: Round Table ........ 22
Master Class within Expressbank's "Young Bankers" Program ........ 24
Khazar University's "Brand students" Presented Certificate ........ 26
Director of Information Technologies Office of Khazar University Elected a Member of ACSO ........ 28
Deputy Director of LIC at Sabanci University ........ 29
Khazar University Rector's Meeting with Mexican Ambassador and Mexican MP ........ 30
Lesson on "Meteorology and Climatology" at National Hydrometeorological Service ........ 31
Khazar University Student Receives "Patriots Awards" ........ 32
The First Seminar Within "China Time Lectures" Project of China Research Center, Khazar University ........ 35
Next Career Fair at Khazar University ........ 36
News of the Institute of ANAS Named After Nizami (*in Azerbaijani*) ........ 38
*Hamlet Isakhanli*. The Legend of a Horse (*in Azerbaijani*) ........ 40
The 3rd International Conference on One Health Held at Khazar University ........ 66
"Khazar"s International Relations ........ 70
Khazar University Vice-Rector Appointed as a Visiting Professor on Law ........ 76
"Khazar" in Counry"s Media ........ 77

It has been published since January 1995

**Founder:**
Khazar University

**Editor-in-chief:**
Hamlet Isakhanli

**Associate editor:**
Alirza Balayev

**Photo:**
Multimedia Centre

Khazar University

Adress:
41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+9912 323 93 13
(+9912 421 10 93
Mobile.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan
Shahin Fazil

**Editor of English Texts:**
Zamira Gurbanova

**Computer graphics:**
Gunel Akbarova

THE IMPACT RANKINGS 2023

## XƏZƏR UNİVERSİTETİ AZƏRBAYCANDAN BÜTÜN SAHƏLƏR ÜZRƏ ƏN YÜKSƏK NƏTİCƏ GÖSTƏRƏN UNİVERSİTETDİR

## KHAZAR UNIVERSITY - THE HIGHEST PERFORMING UNIVERSITY IN ALL SPHERES FROM AZERBAIJAN

2023-cü il iyun ayının 1-də dünyanın ən nüfuzlu reytinq təşkilatlarından biri olan "Times Higher Education" (THE) 2023-cü il üçün BMT-nin "Dayanıqlı İnkişaf Məqsədləri"nə əsaslanan, sosial və iqtisadi töhfələrinə görə fərqlənən ən yaxşı dünya universitetlərini müəyyənləşdirərək, "THE University Impact Rankings 2023" reytinq cədvəlini açıqlayıb.

Reytinqin 5-ci nəşrinə 112 ölkədən 1591 universitet daxil edilmişdir.

Xəzər Universiteti sözügedən reytinqdə 601-800 aralığında qərarlaşaraq, Azərbaycandan bütün sahələr üzrə ən yüksək nəticə göstərən universitetdir.

Xəzər Universiteti Təhsilin keyfiyyəti üzrə 201-300 aralığında yer tutaraq, yüksək təhsil keyfiyyətini və üstün mövqeyini bir daha təsdiqləmişdir. Beləliklə, Xəzər Universiteti sahələrin 1-i üzrə 93-cü yerdə, 2-si üzrə 201-300, 5-i üzrə 301-400, həmçinin, digər 5 sahə üzrə 401-600, iki sahə üzrə isə 601-800 aralığında qərarlaşmışdır.

Reytinq haqqında daha ətraflı məlumat aşağıdakı linkdə:

On June 1, 2023 "Times Higher Education" (THE), one of the world's most influential rating organizations, announced the " University Impact Rankings 2023", identifying the best world universities for 2023, against the UN's "Sustainable Development Goals", distinguished by their social and economic contributions.

1591 universities from 112 countries were included in the 5th edition of the rating.

Khazar University is the highest performing University in all spheres from Azerbaijan being ranked in the 601-800 tier .

Khazar University has once again confirmed its high quality of education and its excellent position by ranking in the 201-300 tier on the quality of education. Thus, Khazar University is ranked 93rd in 1 field, in the tier of 201-300 in 2 fields, 301-400 in 5 fields, 401-600 in other 5 fields, and 601-800 in two fields.

More information about the rating at the link below:

*https://www.timeshighereducation.com/impactrankings#!/length/25/locations/AZE/sort_by/rank/sort_order/asc/cols/undefined*

## NAİLƏXANIM MUZEYİ: "TARİXDƏ İZ SALAN, AZƏRBAYCAN MƏDƏNİYYƏTİNƏ TÖHFƏ VERƏN QADINLAR" SERİYASININ 2-Cİ KİTABI - "SÜRƏYYA AĞAOĞLU VƏ TEZER AĞAOĞLU (TAŞKIRAN)"




Seriyanın "Süreyya Ağaoğlu və Tezer Ağaoğlu (Taşkıran)" adlı ikinci kitabı Xəzər Universiteti Nəşriyyatında çapdan çıxmışdır.

Xatırladaq ki, kitablar seriyası görkəmli pedaqoq Nailəxanım İsayevanın "Dünya" məktəbində yaradılmış müzeyində yer tutan – Azərbaycan mədəniyyətinə töhfə verən 100 qadını əhatə edəcək və seriyanın ideya müəllifi, layihə rəhbəri və redaktoru, həmçinin "Nurcahan və Mümtaz Mahal" adlı 1-ci kitabın müəllifi Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlıdır.

"Sürəyya Ağaoğlu və Tezer Ağaoğlu (Taşkıran)" adlı ikinci kitabın müəllifi "Dünya" məktəbinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Mədinə Karahandır.

Kitab Azərbaycanın görkəmli dövlət və ictimai xadimi Əhməd bəy Ağaoğlunun qızlarının həyat və fəaliyyətinə həsr olunmuşdur. Nəfis şəkildə hazırlanmış kitabda mətnlər maraqlı tarixi fotolarla müşayiət olunur.

## THE 2ND BOOK OF THE SERIES "WOMEN WHO MADE A MARK IN HISTORY AND CONTRIBUTED TO AZERBAIJANI CULTURE" PUBLISHED

The second book of the series "Surayya Aghaoghlu and Tezer Aghaoghlu (Tashkıran)" has been published by Khazar University Publishing House.

Note that the series of books will include 100 women who contributed to the culture of Azerbaijan, who have a place in the Nailekhanim Museum in the "Dunya" school, and the author of the idea, project manager and editor of the series, as well as the author of the 1st book entitled "Nurjahan and Mumtaz Mahal" is the founder of Khazar University, the chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli.

The author of the second book" Surayya Aghaoghlu and Tezer Aghaoghlu (Tashkiran) " is Madina Karahan, an employee of the "Dunya" School, PhD in philology. The book is dedicated to the life and activities of the daughters of the outstanding state and public figure of Azerbaijan, Ahmed Bey Aghaoghlu. The texts are accompanied by interesting historical photos in an elegantly designed book.

## NAİLƏXANIM İSAYEVANIN "XOŞBƏXTLİK GÖYDƏN DÜŞMÜR..." ADLI KİTABI ÇAP OLUNUB

## THE BOOK "HAPPINESS DOES NOT FALL FROM THE SKY..." BY NAILEKHANIM ISAYEVA PUBLISHED



Görkəmli pedaqoq, "Dünya" məktəbinin yaradıcısı və qurucusu Nailəxanım İsayevanın "Xoşbəxtlik göydən düşmür..." adlı kitabı Xəzər Universiteti Nəşriyyatında çap olunub.

Kitabın tərtibçiləri Afaq Qəmbərova və Hamlet İsaxanlı, redaktoru İsaxan İsaxanlı, rəssamı Rafiq Mirəbdülrəhimovdur. Kompüter işini Nərminə Qasımova yerinə yetirmişdir.

Kitabın "Ana qucağı ən isti, ən sevimli qucaqdır..." adlanan birinci fəsli Nailəxanım İsayevanın uşaqlıq dövründən başlayaraq həyatının son illərinə qədər qələmə aldığı xatirələrdən ibarətdir. Fəslin sonuna əlavə olaraq Nailəxanım İsayevanın İsaxan İsaxanlının 50 illik yubileyindəki çıxışı (15 fevral 2012-ci il) və İsaxan İsaxanlının xəstəxanada onunla görüşü haqqında "Qayğıkeş mələyə notlar..." adlı qısa xatirəsi verilmişdir.

"Məktublar" adlanan ikinci fəsil Hamlet İsaxanlının "Nailəxanımın məktubları haqqında" adlı ön sözündən, Nailəxanım İsayevanın Hamlet İsaxanlıya göndərdiyi 11 məktubdan və nəvəsi Canana yeddi yaşı münasibətilə yazdığı təbrik məktubundan ibarətdir.

"Bu da bir həyatdı..." adlı üçüncü fəsildə Nailəxanım İsayevanın əsasən "Dünya" məktəbinin fəaliyyəti ilə bağlı keçirilmiş tədbirlərdəki çıxışları verilmişdir. Xəzər Universiteti və "Dünya" məktəbinin müəllimi olmuş görkəmli folklorşünas alim, Əməkdar elm xadimi Bəhlul Abdulla haqqındakı "Bəhlul Abdulla – sevgi dolu alim və pedaqoq" adlı kitaba Nailəxanım İsayevanın redaktor kimi yazdığı ön söz də bu fəsildə yer almışdır. "Dünya" məktəbinin məzunları da sevimli müəllimləri, "Dünya" Təhsil Kompleksinin direktoru Nailəxanım İsayeva haqqında minnətdarlıq sözlərini bu fəsildə bölüşürlər.

Kitabın "Əlavələr" bölümündə Nailəxanım İsayevanın həyat tarixçəsi və xatirəsinin əbədiləşdirilməsi üçün həyata keçirilən tədbirlər silsiləsi əks olunmuşdur.

Kitab boyu xalq artistləri Gülyanaq Məmmədova, Brilliant Dadaşova, İlqar Muradov, Ramiz Həsənoğlu, Flora Kərimova, Əməkdar incəsənət xadimi Cavanşir Quliyev, fizika-riyaziyyat elmləri doktoru, professor İlham Pirməmmədov və tarix elmləri doktoru, professor Solmaz Rüstəmova-Tohidi Nailəxanım İsayeva haqqında ürək sözlərini ifadə edirlər.

Kitab əhatəli və dərin məzmunu, zəngin fotomaterialı və nəfis tərtibatı ilə görkəmli təhsil təşkilatçısı və pedaqoq, unudulmaz insan Nailəxanım İsayevanın əziz xatirəsinə layiqli töhfədir.

The book "Happiness doesn't fall from the sky..." by Nailakhanim Isayeva, the prominent educator, creator and founder of "Dunya" school, was published by Khazar University Publishing House.

The developers of the book are Afag Gambarova and Hamlet Isakhanli, the editor is Isakhan Isakhanli, and the artist is Rafig Mirabdulrahimov. Computer work was performed by Narmina Gasimova.

The first chapter of the book, entitled "A mother's hug is the warmest, sweetest hug...", consists of memories written by Nailekhanim Isayeva from her childhood to the last years of her life. At the end of the chapter, Nailekhanim Isayeva's speech on the 50th anniversary of Isakhan Isakhanli (February 15, 2012) and Isakhan Isakhanli's meeting with her in the hospital, entitled "Notes to a Caring Angel...", was added.

The second chapter entitled "Letters" consists of Hamlet Isakhanli's foreword "About Nailekhanim's letters", 11 letters sent by Nailekhanim Isayeva to Hamlet Isakhanli, and a congratulatory letter written to her granddaughter Janan on her seventh birthday.

In the third chapter, "This was a life...", Nailekhanim Isayeva's speeches at events related to the activities of the "Dunya" school are given. The foreword of the book "Bahlul Abdulla - a loving scientist and pedagogue" about Bahlul Abdulla, an outstanding folklorist scientist who was an instructor of Khazar University and "Dunya" school, is included in this chapter. Graduates of "Dunya" school also share their words of gratitude about their beloved teacher, Director of "Dunya" Educational Complex Nailekhanim Isayeva in this chapter.

In the "Appendixes" section of the book, the series of measures carried out to perpetuate the life history and memory of Nailekhanim Isayeva is reflected.

Throughout the book, People's artists Gulyanag Mammadova, Brilliant Dadashova, Ilgar Muradov, Ramiz Hasanoglu, Flora Karimova, Honored Art Worker Javanshir Guliyev, Doctor of Physics and Mathematics, Professor Ilham Pirmammadov and Doctor of History, Professor Solmaz Rustamova-Tohidi express their heartfelt words about Nailekhanim Isayeva.

The book is a worthy contribution to the dear memory of Nailekhanim Isayeva, an outstanding educational organizer and pedagogue, an unforgettable person, with its comprehensive and deep content, rich photographic material and elegant layout.

# İSTANBUL AYDIN UNİVERSİTETİNİN, MANİSA CELAL BAYAR UNİVERSİTETİNİN VƏ KÜTAHYA DUMLUPINAR UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"DƏ

# REPRESENTATIVES OF ISTANBUL AYDIN UNIVERSITY, MANISA CELAL BAYAR UNIVERSITY AND KUTAHYA DUMLUPINAR UNIVERSITY AT KHAZAR UNIVERSITY

Mayın 8-12-də Türkiyənin İstanbul Aydın Universiteti Ümumi şöbəsinin müdir müavini Serkan Yolsal, Kütahya Dumlupınar Universitetinin Siyasət departamentinin tədqiqatçısı Selman Saç və Manisa Celal Bayar Universitetinin Biznes fakültəsinin tədqiqatçısı Gencay Tepe Erasmus+ İşçi Heyətinin Mübadilə Proqramı (Erasmus+ KA107171) çərçivəsində Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsi, İqtisadiyyat və menecment fakültəsi və Beynəlxalq əlaqələr ofisi tərəfindən qəbul edildilər.

Proqramın ilk günü Beynəlxalq əlaqələr üzrə prorektor Vlad Vernygora, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, İctimai əlaqələr və media üzrə direktor Ələvsət Əmirbəyli, İngilis dili və ədəbiyyatı departamentinin müdiri Milana Abbasova, Kitabxana İnformasiya Mərkəzinin (KİM) direktor müavini Aytac Misgərli, Beynəlxalq əlaqələr ofisinin koor-



On May 8-12, Serkan Yolsal, deputy director of the General Department of Istanbul Aydın University, Selman Sach, researcher of the Department of Politics of Kutahya Dumlupınar University, and Gencay Tepe, researcher of the Business Faculty of Manisa Celal Bayar University visited the School of Humanities, Education and Social Sciences, the School of Economics and Management and the International Relations Office of Khazar University within the framework of the Erasmus+ Staff Exchange Program (Erasmus+ KA107171).

On the first day of the program, an introductory meeting was held with Turkish professors and teachers with the participation of vice-rector for International Relations Vlad Vernygora, dean of the School of Economics and Management Jeyhun Mammadov, director of Public Relations and Media Alovsat Amirbeyli, head of the

dinatorları Fatimə Vəliyeva, Arzu Bədəlova və Turan Əlizadənin iştirakı ilə türkiyəli professor-müəllim heyəti ilə tanışlıq görüşü keçirildi. Görüşdə Vlad Vernygora Xəzər Universiteti haqqında geniş məlumat verdi. Universitetlərin nümayəndələri öz universitetləri haqqında videoçarx nümayiş etdirdilər.

Proqrama uyğun olaraq KİM-in direktor müavini Aytac Misgərli qonaqları mərkəzin fəaliyyəti ilə tanış etdi. Nailəxanım Mədəniyyət Mərkəzində onlara görkəmli pedaqoq Nailəxanım İsayevanın həyat və fəaliyyətini əks etdirən eksponatlar haqqında ətraflı məlumat verildi. Sonra Fizika və elektronika departamentinin müdiri Fəridə Tatardar qonaqları departament və laboratoriyanın fəaliyyəti ilə tanış etdi.

Proqramın ikinci günündə Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Orxan Vəliyev ilə görüş keçirildi və qonaqlar departament haqqında ətraflı məlumat aldılar. Departamentin



*Vlad Vernygora, Serkan Yolsal*

müəllimi Baba Bayramovun "Avropa ölkələrinin etnopsixologiyası" dərsində dinləyici olaraq iştirak etdilər və tələbələrə çalışdıqları universitet və onun proqramları haqqında məlumat verdilər.

*(Ardı səh.12- də)*



*Selman Saç, Elza Səmədova*

Department of English Language and Literature Milana Abbasova, deputy director of the Library Information Center LIC), Aytaj Misgarli, coordinators of the International Relations Office Fatima Valiyeva, Arzu Badalovaand Turan Alizade. At the meeting, Vlad Vernygora gave detailed information about Khazar University. The representatives of the universities demonstrated a video about their universities.

According to the program, the deputy director of LIC Aytac Misgarli introduced the guests to the activities of the center. In the Nailekhanim Cultural Center, they were given detailed information about the exhibits reflecting the life and activities of the outstanding educator Nailekhanim Isayeva. Then the head of Physics and Electronics Department, Farida Tatardar, introduced the guests to the activities of the department and the laboratory.

On the second day of the program, a meeting was held with the head of the Department of Political Sciences and Philosophy, Orkhan Valiyev, and the guests received detailed information about the department. They participated as listeners in the "Ethnopsychology of European countries" class of

*(To be continued page 12)*

Sonra qonaqlar "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunda ekskursiyada oldular. Ekskursiyada Xəzər Universitetinin Erasmus+ tələbə mübadilə proqramı ilə İstanbul Aydın Universiteti və Manisa Celal Bayar Universitetində 1 semestrlik təhsil alan tələbələr - Əsmər Paşayeva və Sima Rəhimova da iştirak etdilər.

Növbəti günlərdə İqtisadiyyat və menecment fakültəsində dekan Ceyhun Məmmədov fakültənin fəaliyyəti haqqında məlumat vermiş və iki universitet arasında departamentlərarası əməkdaşlıq istiqamətində danışıqlar aparmışdır.

Qonaqlar Humanitar, təhsil və sosial elmlər fakültəsində olmuş, dekan Elza Səmədova fakültənin fəaliyyət istiqamətləri haqqında məlumat vermiş və əməkdaşlıq məsələsi müzakirə olunmuşdur. Beynəlxalq əlaqələr ofisi ilə də tanış olan nümayəndə heyətinə ofisin koordinatorları ofis və onun fəaliyyəti haqqında məlumat vermişlər.

Proqramın sonunda nümayəndə heyətinə sertifikat və hədiyyə təqdim edilmişdir.



*Ceyhun Məmmədov, Gencay Tepe*



*"Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunda*
*"Ateshgah Temple" State Historical-Architectural Reserve*

the lecturer of the department, Baba Bayramov, and informed the students about the university where they work and its programs.

Then the guests went on an excursion to the "Ateshgah Temple" State Historical-Architectural Reserve. Asmar Pashayeva and Sima Rahimova, students who studied at Istanbul AydinUniversity and Manisa Celal Bayar University for 1 semester under Khazar University's Erasmus+ student exchange program, also participated in the excursion.

In the following days, the dean of the School of Economics and Management, Jeyhun Mammadov, informed about the activities of the school and conducted negotiations in the direction of interdepartmental cooperation between the two universities.

The guests visited the School of Humanities, Education and Social Sciences, and the dean Elza Samadova gave information about the activities of the school and the issue of cooperation was discussed. The coordinators of the International Relations office gave information about the office and its activities to the delegation.

At the end of the program, a certificate and a gift were presented to the delegation.




*Arzu Bədəlova, Nərgiz Əlili, Nərmin Həsənəli, Özgül Nağızadə*

## ERASMUS TƏLƏBƏ TƏŞKİLATININ MƏLUMAT SESSİYASI

Mayın 12-də Xəzər Universitetinin Beynəlxalq əlaqələr ofisinin təşkilatçılığı ilə Erasmus Tələbə Təşkilatının Azərbaycan üzrə ofisi tələbələr üçün məlumat sessiyası keçirdi.

Sessiyanın keçirilməsində əsas məqsəd tələbələri ESN platforması tərəfindən keçirilən aktiv layihələr və fəaliyyət planı barədə ətraflı məlumatlandırmaq idi.

Tədbirdə Beynəlxalq əlaqələr üzrə prorektor Vlad Vernygora, Beynəlxalq əlaqələr üzrə koordinator Arzu Bədəlova və Erasmus Tələbə Təşkilatının əməkdaşları Nərgiz Əlili, Alim Əsgərov, Nərmin Həsənəli və Özgül Nağızadə iştirak etdilər.

Sonda tələbələrin sualları cavablandırıldı.

## INFORMATION SESSION OF ERASMUS STUDENT ORGANIZATION

On May 12, the Azerbaijan office of the Erasmus Student Organization held an information session for students under the organization of Khazar University's International Relations office.

The main purpose of the session was to provide students with detailed information about the active projects and Action Plan held by the ESN platform.

Vice-rector for International Relations Vlad Vernygora, coordinator for International Relations Arzu Badalova and employees of Erasmus Student Organization Nargiz Alili, Alim Asgarov, Narmin Hasanali and Ozgul Nagizade attended the event.

At the end, the students' questions were answered.





## DEPARTAMENT MÜDİRİ BEYNƏLXALQ SİMPOZİUMDA

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin mayın 16-da "Bandunqdan Bakıya qədər: Qoşulmama Hərəkatı mürəkkəb və dəyişkən qlobal kontekstdə" mövzusunda keçirdiyi beynəlxalq simpoziumda iştirak etmişdir.

## DEPARTMENT HEAD AT INTERNATIONAL SYMPOSIUM

Head of the Department of Political Sciences and Philosophy of Khazar University Dr. Orkhan Valiyev participated in the International Symposium held by the Center for the Analysis of International Relations on May 16, entitled "From Bandung to Baku: The Non-Aligned Movement in a Changing and Challenging Global Context".

*https://aircenter.az/en/post/empowering-africa-in-the-age-of-global-challenges-and-promoting-multilateralism-the-role-of-the-non-aligned-movement-1202*

## "XƏZƏR"İN DEPARTAMENT MÜDİRİ QAFQAZ REGİONAL EKOLOJİ MƏRKƏZİ ELMİ ŞURASININ ÜZVÜ SEÇİLMİŞDİR



*Rövşən Abbasov*

Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov Qafqaz üzrə Regional Ekoloji Mərkəzin mayın 17-də Tbilisi şəhərində keçirilən ümumi yığıncağında iştirak emtişdir. Ümimi yığıncaqda Rövşən Abbasov Qafqaz Regional Ekoloji Mərkəzi Elmi şurasının üzvü seçilmişdir.

Qeyd edək ki, Qafqaz Regional Ekoloji Mərkəzi Qafqaz regionunda ekoloji problemlərin həlli istiqamətində müxtəlif layihələr həyata keçirir və üç ölkənin ətraf mühit nazirlikləri tərəfindən dəstəklənən müstəqil bir təşkilatdır.

## DEPARTMENT HEAD OF KHAZAR UNIVERSITY ELECTED A MEMBER OF THE SCIENTIFIC COUNCIL OF REGIONAL ENVIRONMENTAL CENTRE FOR THE CAUCASUS

Rovshan Abbasov, head of Khazar University Geography and Environment Department, participated in the general meeting of the Regional Environmental Centre for the Caucasus on May 17, Tbilisi. At the general meeting, Rovshan Abbasov was elected a member of the Scientific Council of the Regional Environmental Centre for the Caucasus. Note that the Regional Environmental Centre for the Caucasus implements various projects to solve environmental problems in the Caucasus region and is an independent organization supported by the ministries of environment of the three countries.

# “XƏZƏR”İN ƏMƏKDAŞLARI "NİKAHIN XİTAMI İLƏ BAĞLI AİLƏ QANUNVERİCİLİYİNİN TƏTBİQİ SAHƏSİNDƏ MÖVCUD VƏZİYYƏT" MÖVZUSUNDA KEÇİRİLMİŞ KONFRANSDA

# KHAZAR UNIVERSITY STAFF MEMBERS AT THE CONFERENCE ON "THE CURRENT SITUATION IN THE FIELD OF APPLICATION OF FAMILY LEGISLATION RELATED TO THE TERMINATION OF MARRIAGE"

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

Azərbaycan Respublikasının Ali Məhkəməsi

Vəkillər Kollegiyası

Mayın 19-da Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Azərbaycan Respublikasının Ali Məhkəməsinin və Vəkillər Kollegiyasının birgə təşkilatçılığı ilə “Nikahın xitamı ilə bağlı ailə qanunvericiliyinin tətbiqi sahəsində mövcud vəziyyət” mövzusunda konfrans keçirilib.

Konfransda Xəzər Universitetinin Psixologiya departamentinin koordinatoru Mələk Kərimova və Hüquq departamentinin müəllimi Akif Əlizadə iştirak etmişlər. Onlar öz çıxışlarında universitetdə tədris edilən “Ailə hüququ” fənninin əhəmiyyətini qeyd etməklə yanaşı, Mələk Kərimova həmçinin təhsildə, ailə mediasiya prosesində rast gələn çətinliklərdən, ailə institutunun möhkəmlənməsi üçün ailə dəstək mərkəzlərinin qurulmasından, evlilik öncəsi və evlilik müddətində olan ödənişsiz psixoloji yardımın zəruriliyindən danışıb.

On May 19, a conference on "The current situation in the field of application of family legislation related to the termination of marriage" was held under the joint organization of the State Committee for Family, Women and Children's Issues, the Supreme Court of the Republic of Azerbaijan and the Bar Association.

Malak Karimova, the coordinator of the Psychology Department of Khazar University, and Akif Alizadeh, the lecturer of the Law Department, took part in the conference. In their speeches, they noted the importance of the "Family Law" subject taught at the university, and Malak Karimova also spoke about the difficulties encountered in education, the family mediation process, the establishment of family support centers to strengthen the family institution, and the need for free psychological assistance before and during marriage.





*Anar Cəfərov*

# SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜƏLLİMİNİN SEMİNARI

# SEMINAR BY THE LECTURER OF POLITICAL SCIENCE AND PHILOSOPHY DEPARTMENT

Mayın 19-da Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin təşkilatçılığı ilə departamentin müəllimi Dr. Anar Cəfərov "Fəlsəfə, elm və din" mövzusunda seminar keçirmişdir.

Seminarda departamentin müdiri Dr. Orxan Vəliyev, departamentin müəllimləri Dr. Məhəmməd Eldarov, PhD Fərid Quliyev, Ruslan Xəlilov, Tərlan Orucova və tələbələr iştirak etmişdir.

Seminar fəlsəfə nəyi öyrənir, fəlsəfi fikirlərdə artikulyasiyanın olması, həmçinin fəlsəfə, elm və dinin qarşılıqlı əlaqəsi və s. məsələləri əhatə etmişdir. Sonda tələbələrin sualları cavablandırılmışdır.

On May 19, under the organization of the Department of Political Sciences and Philosophy of Khazar University, the lecturer of the department, Dr. Anar Jafarov, held a seminar on "Philosophy, Science and Religion".

Head of the department Dr. Orkhan Valiyev, faculty members of the department Dr. Mahammad Eldarov, PhD Farid Guliyev, Ruslan Khalilov, Tarlan Orujova and students took part in the seminar.

The seminar covered the issues of what philosophy studies, the articulation of philosophical ideas, and the relationship between philosophy, science and religion et c. At the end, the students' questions were answered.










*Kəmalə Ramazanova*

# KARYERA MƏRKƏZİ VƏ "DAVAM": "DAVAMÇI OL"

# CAREER CENTER AND "DAVAM" YOUTH MOVEMENT : "BECOME A FOLLOWER"

Mayın 22-də Xəzər Universiteti Karyera Mərkəzinin və "Davam" Gənclər Hərəkatı təşkilatının təşəbbüsü ilə "Davamçı ol" adlı tədbir keçirildi. Tədbir Karyera Mərkəzinin nümayəndəsi Mustafa Həsənlinin tələbələrə təşkilat haqqında ilkin məlumat verməsi ilə başlandı.

Ardınca təşkilatın Təhsil Müəssisələri ilə İş üzrə Katibi Kəmalə Ramazanova "Davam" təşkilatının prinsipləri, metodları, gənclərə qazandıracağı bilik və bacarıqlar barədə təqdimatını nümayiş etdirdi.

Tədbir tələbələrin suallarının cavablandırılması ilə yekunlaşdı. Tədbirin sonunda təşkilatın nümayəndələri iştirakçı tələbələrə təşkilatın spesifik qolbaq və sancaqlarını təddim etdilər.

On May 22, an event called " Become a follower " was held at the initiative of Khazar University Career Center and "Davam" Youth Movement organization. The event began with preliminary information provided by Mustafa Hasanli, the representative of the Career Center.

After that, Kamala Ramazanova, Secretary for Work with Educational Institutions of the organization, presented the principles, methods, knowledge and skills that "Davam" organization will bring to young people.

The event ended with answering students' questions. At the end of the event, the representatives of the organization presented the specific bracelets and pins of the organization to the participating students.



# XƏZƏR UNİVERSİTETİNDƏ "İNDONEZİYA GÜNÜ"

# "INDONESIA DAY" AT KHAZAR UNIVERSITY





*Emmanuella Esinam Ofori, Adib Kurniawan, Abdullah Miftachul Irvan*

Mayın 23-də Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin İndoneziya Respublikasının Azərbaycandakı Səfirliyi ilə əməkdaşlığı çərçivəsində "İndoneziya günü" təşkil olundu. Tədbirdə Xəzər Universitetinin əcnəbi tələbələri – Alif Paramardhika Putera, Brilliant Windy Khairunnisa, Aldila Qonita Putri Aulia Alfi Nasri, Abdullah Miftachul Irvan, Adib Kurniawan və Dona Alicia iştirak etdilər. Tədbirin məqsədi əcnəbi tələbələrin yerli tələbələr və işçi heyəti ilə mədəni mübadiləsinin gücləndirilməsi idi.

Əcnəbi tələbələrin təqdimatında İndoneziyanın təbiəti, mədəniyyəti, mətbəxi, milli geyimləri və adət-ənənələri nümayiş olundu.

Tədbirin sonunda viktorina keçirildi və qaliblərə İndoneziyadan gətirilmiş hədiyyələr verildi.

On May 23, "Indonesia Day" was organized as part of the cooperation of the International Relations Office of Khazar University with the Embassy of the Republic of Indonesia in Azerbaijan. The event was attended by international students of Khazar university – Alif Paramardhika Putera, Brilliant Windy Khairunnisa, Aldila Gonita Putri Aulia Alfi Nasri, Abdullah Miftachul Irvan, Adib Kurniawan and Dona Alicia. The purpose of the event was to strengthen the cultural exchange of international students with local students and staff.

In the presentation of international students, the nature, culture, cuisine, national costumes and traditions of Indonesia were demonstrated.

At the end of the event, a quiz was held and the winners were given gifts brought from Indonesia.



# XƏZƏR UNİVERSİTETİNİN TƏSİSÇİSİ HİNDİSTANIN AZƏRBAYCANDAKI SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

# KHAZAR UNIVERSITY FOUNDER MEETS WITH THE AMBASSADOR OF INDIA TO AZERBAIJAN



*Ceyhun Allahverdiyev, Sridharan Madhusudhanan, Hamlet İsaxanlı*

Mayın 24-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı Hindistanın Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri Sridharan Madhusudhanan ilə səfirlikdə görüşmüşdür.

Görüşdə elmi-mədəni əlaqələrin genişlənməsi yönündə məsələlər müzakirə olunmuşdur. Eyni zamanda, Xəzər Universitetinin fəaliyyətindən də söz açılmış, Hamlet İsaxanlının müəllifi olduğu "Tac Mahal" librettosu əsasında Əməkdar incəsənət xadimi Ceyhun Allahverdiyevin hazırladığı "Tac Mahal" baleti haqqında da söhbət aparılmışdır.

On May 24, professor, academician Hamlet Isakhanli met with Sridharan Madhusudhanan, Ambassador Extraordinary and Plenipotentiary of India to Azerbaijan, at the embassy.

Issues related to the expansion of scientific and cultural relations were covered in the meeting. At the same time, the activity of Khazar University was talked about, and the ballet "Taj Mahal" prepared by Honored Art Worker Jeyhun Allahverdiyev based on the libretto "Taj Mahal" written by Hamlet Isakhanli was also discussed.

# FULBRAYT QONAQ TƏDQİQATÇILAR ÜÇÜN YOLASALMA TƏDBİRİ

# FAREWELL EVENT FOR FULBRIGHT VISITING SCHOLARS




*Ronald Wayne Smith, İradə Xəlilova, Qaisar Sultana*

Mayın 25-də Xəzər Universitetinin Beynəlxalq ofisi tərəfindən Fulbrayt qonaq tədqiqatçılar Dr. Qaisar Sultana və Eastern Kentucky Universitetinin professoru Ronald Wayne Smith üçün yolasalma tədbiri keçirildi.

Tədbirdə rektor İradə Xəlilova, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Elza Səmədova, Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova, İngilis dili və ədəbiyyatı departamentinin müdiri Milana Abbasova, Kitabxana İnformasiya Mərkəzinin direktoru Tatyana Zaytseva, Humanitar, Təhsil və sosial elmlər fakültəsinin əməkdaşları Tərlan Orucova və Aygün Verdiyeva, Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşları Arzu Bədəlova və Turan Əlizadə iştirak etmişlər.

Qeyd edək ki, Dr. Qaisar Sultana inklüziv təhsil sahəsində böyük təcrübəyə malikdir. Proqram çərçivəsində o, Humanitar, təhsil və sosial elmlər fakültəsinin Təhsil departamentində inklüziv təhsil sahəsində təlimlər keçirmişdir. Eastern Kentucky Universitetinin professoru Ronald Wayne Smith isə tələbələrin ingilis dilində danışıq bacarıqlarını inkişaf etdirmək məqsədilə danışıq klubları təşkil etmişdir.

Tədbirin sonunda qonaq tədqiqatçılara sertifikat və hədiyyə təqdim olunmuşdur.

On May 25, Khazar University's International Office hosted a farewell event for Fulbright Visiting Scholars Dr. Qaisar Sultana and Professor Ronald Wayne Smith of Eastern Kentucky University.

Rector Irada Khalilova, dean of the School of Humanities, Education and Social Sciences Elza Samadova, director of the Quality Assurance Center Lyudmila Sotova, head of the English Language and Literature Department Milana Abbasova, director of the Library Information Center Tatyana Zaytseva, employees of the School of Humanities, Education and Social Sciences Tarlan Orujova and Aygun Verdiyeva, employees of the International Relations Office Arzu Badalova and Turan Alizade attended the event.

Note that Dr. Qaisar Sultana has vast experience in the field of inclusive education. Within the framework of the program, she conducted training in the field of inclusive education at the Department of Education of the School of Humanities, Education and Social Sciences. Ronald Wayne Smith, a professor at Eastern Kentucky University, organized conversation clubs to improve students' English speaking skills.

At the end of the event, the visiting scholars were presented with a certificate and a gift.

# XƏZƏR UNİVERSİTETİNİN TƏSİSÇİSİ QAZAXISTANIN AZƏRBAYCANDAKI SƏFİRİ İLƏ GÖRÜŞMÜŞDÜR

# KHAZAR UNIVERSITY FOUNDER MEETS WITH THE AMBASSADOR OF KAZAKHSTAN TO AZERBAIJAN

Mayın 25-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı Qazaxıstanın Azərbaycanda Fövqəladə və səlahiyyətli səfiri Alim Bayel ilə görüşmüşdür. Görüşdə Əməkdar incəsənət xadimi Ceyhun Allahverdiyev də iştirak etmişdir.

Görüş zamanı elmi-mədəni istiqamətlərin qarşılıqlı inkişafından, eyni zamanda Xəzər universitetinin elmi fəaliyyətlərindən söz açılmışdır. Ceyhun Allahverdiyevin bəstələdiyi, librettosu Hamlet İsaxanlıya məxsus olan "Tac Mahal" baleti haqqında da danışılmışdır.

On May 25, the founder of Khazar University, the chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli met with the Extraordinary and Plenipotentiary Ambassador of Kazakhstan to Azerbaijan Alim Bayel. Honored artist Jeyhun Allahverdiyev also participated in the meeting.

During the meeting, mutual development of scientific and cultural directions, as well as the scientific activities of Khazar University were discussed. They also talked about the ballet "Taj Mahal" composed by Jeyhun Allahverdiyev, the libretto of which belongs to Hamlet Isakhanli.

## NARKOMANİYAYA QARŞI MÜBARİZƏYƏ HƏSR EDİLMİŞ SİLSİLƏ SEMİNARLAR

Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi və Respublika Narkologiya Mərkəzinin psixoloqu Ramin Allahverdiyev tərəfindən 2023-cü ilin yanvar-may aylarında İngilis dili müəllimliyi, Dizayn və İqtisadiyyat ixtisaslarının tələbələrinə "Psixoaktiv maddələrin istifadəsinin zərərli təsirləri" mövzusunda seminarlar təşkil edilib.

Seminarların əsas hədəfi tələbələrin psixoaktiv maddələrin insan sağlamlığına təsirinin zərərlərindən xəbərdar edilməsidir. Psixoaktiv maddələrin istifadəsinin zərərləri ilə birlikdə bu məsələyə dair tələbələrin ümumi məlumat səviyyəsinin artırılmasına da diqqət yetirilmişdir. Gənclərin sosio-ekonomik və ailə problemləri, uyğunsuz sosial mühitlərin mənfi təsiri kimi məsələlər müzakirə olunmuşdur. Tələbələrə psixi və fiziki sağlamlıqlarını necə qoruya biləcəkləri və alternativ yollar barədə də məlumatlar verilmişdir.

Seminarlar tələbələr tərəfindən maraqla qarşılanmış, onların sualları cavablandırılmışdır.

## SERIES OF SEMINARS DEDICATED TO THE FIGHT AGAINST DRUG ADDICTION

In January-May Ramin Allahverdiyev,the lecturer of the Psychology Department of Khazar University and the psychologist of the Republican Narcology Center, organized seminars on "Harmful effects of the use of psychoactive substances" for students majoring in English language teaching, Design and Economics.

The main goal of the seminars is to make students aware of the dangers of the effects of psychoactive substances on human health. Along with the harms of the use of psychoactive substances, attention was also paid to increasing the general level of knowledge of students on this issue. Issues discussed included the socio-economic and family problems of young people and the negative consequences of an unfavourable social environment. Students were also provided with information on how to protect their mental and physical health and alternative ways. The seminars were welcomed by the students and their questions were answered.




*Nəsiman Yaqublu*

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ TƏLƏBƏLƏRİN TƏQDİMATINDA: DƏYİRMİ MASA

# AZERBAIJAN DEMOCRATIC REPUBLIC AT THE PRESENTATION OF STUDENTS: ROUND TABLE

Mayın 25-də Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi professor Nəsiman Yaqublunun təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 105-ci ilinə həsr olunmuş tədbir keçirildi.

Tədbirdə Nəsiman Yaqublu və Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Ələvsət Əmirbəyli, həmçinin departamentin tələbələri mövzu ilə əlaqəli çıxışlar etdilər. Çıxışlarda Azərbaycan Xalq Cümhuriyyətinin öndə gələn şəxsiyyətləri və onların siyasi-ictimai fəaliyyətləri haqqında geniş məlumatlar verildi.

On May 25, an event dedicated to the 105th anniversary of the establishment of the Azerbaijan People's Republic was held at the initiative of Professor Nasiman Yagublu, the lecturer of the History and Archeology Department of Khazar University.

Nasiman Yagublu and Alovsat Amirbeyli, director of Public Relations and Media at Khazar University, as well as students of the department made speeches on the topic. The speeches provided detailed information about the leading personalities of the Azerbaijan Democratic Republic and their political and social activities.













*Vurğun Yusubov*

## SEMİNAR: "İNŞAAT MÜHƏNDİSLİYİ - BÜNÖVRƏ PLANI"

Mayın 25-də Karyera Mərkəzinin təşkilatçılığı ilə Xəzər Universitetində "İnşaat mühəndisliyi - bünövrə planı" adlı seminar keçirildi. Seminarda "Kristal Abşeron MTK" şirkətinin Texniki ofis mühəndisi Vurğun Yusubov öz təcrübəsini tələbələrlə bölüşdü. Xatırladaq ki, Vurğun Yusubov 2019 - cu ildə Xəzər Universitetinin İnşaat mühəndisliyi ixtisasından məzun olmuşdur.

Seminarda inşaatın tikinti prosesi, sahənin müsbət və mənfi tərəfləri, təcrübə və təhsilin önəmi haqqında geniş danışıldı. "Mühəndis kimdir?",

"Sahə mühəndisi, yoxsa ofis mühəndisi?,

"Sahə nədir və üstünlükləri nələrdir?" və s. kimi suallar ətrafında müzakirələr aparıldı.

Seminarın sonunda tələbələrin sualları cavablandırıldı.

## SEMINAR ON "CIVIL ENGINEERING-FOUNDATION PLAN"

On May 25, a seminar entitled "Construction engineering - foundation plan" was held at Khazar University, organized by the Career Center. Technical Office Engineer of "Crystal Absheron HCC" Vurghun Yusubov shared his experience with the students. Vurghun Yusubov graduated from Khazar University with a degree in Civil Engineering in 2019.

The seminar covered the issues such as the construction process, the positive and negative aspects of the field, the importance of experience and education. The questions such as "Who is an engineer?", "Field engineer or office engineer?", "What is a field and what are its advantages?" were discussed.

At the end of the seminar, students ' questions were answered.

## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜDİRİ BEYNƏLXALQ SİMPOZİUMDA

Türkiyənin Ege Universitetinin Türk Dünyası Araşdırmaları İnstitutu tərəfindən mayın 25-də İzmir şəhərində III Beynəlxalq Türkiyə-Rusiya Münasibətləri Simpoziumu keçirilib.

Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Dr. Telman Nüsrətoğlu simpoziumda həm moderator olmuş, həm də "Türk-Rus hərbi əməkdaşlığının İpək Yolu hövzəsində təhlükəsizlik və istiqrarın təmin edilməsindəki rolu" mövzusunda çıxış etmişdir.

## HISTORY AND ARCHEOLOGY DEPARTMENT HEAD AT THE INTERNATIONAL SYMPOSIUM

The III International Türkiye -Russia Relations Symposium was held on May 25, in Izmir by the Institute of Turkish World Studies at Ege University of Türkiye. Dr.Telman Nusratoghlu, head of Khazar University's History and Archeology Department, moderated the symposium and spoke on the topic "The role of Turkish-Russian military cooperation in ensuring security and stability in the Silk Road basin."

# EXPRESSBANKIN "GƏNC BANKİRLƏR" PROQRAMI ÇƏRÇİVƏSİNDƏ USTAD DƏRSİ




Mayın 25-də Karyera Mərkəzinin təşkilatçılığı ilə Xəzər Universitetinində Expressbank ustad dərsi keçirmişdir. Ustad dərsində İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Kompüter elmləri ixtisası, Kompüter mühəndisliyi ixtisasında bakalavr pilləsi üzrə təhsil alan 3-4-cü kurs tələbələri və magistr pilləsi üzrə təhsil alan tələbələr iştirak etdilər. Tədbirin məqsədi tələbələrin Expressbankın komandasının üzvləri və təşkilati strukturu ilə daha yaxından tanış edilməsi, gənclər üçün karyera və təcrübə imkanlarının yaradılması və keçirilən müsabiqələr, sınaq müsahibələri və bank işi ilə praktik tanışlıq idi.

Expressbankın Təlim tədris şöbəsinin mütəxəssisi Nigar İsayeva bankın təşkilatçılığı ilə keçirilən yarışlar, şirkətdəki karyera ilə bağlı inkişaf imkanları, bank üçün vacib olan şəffaflıq, innovativlik və.s haqqında məlumat verdi. Xidmət üzrə mütəxəssislər - Lalə Salmanova və Həşim Əlizadə müştərini tanıma prinsipləri haqqında danışdılar və bu zaman təlimin digər hissələrində də olduğu kimi, məlumat verilməklə yanaşı, interaktiv olaraq sual-cavab aparıldı.

Bankın əməkdaşları Nəzrin Nadirli və Samir Osmanov satış ilə bağlı öz dəyərli məlumatlarını tələbələrlə paylaşdılar və bu zaman ustad dərsinin ən maraqlı hissələrindən biri olan yarış keçirildi. 3 könüllüdən - Ayşə Vəliyeva, Aygün Səlimova və Nurlan *Məmmədovdan* onlara verilən əşyaların digər tələbələrə "satış edilməsi" istənildi və səsvermə keçirildi,

# MASTER CLASS WITHIN EXPRESSBANK'S "YOUNG BANKERS" PROGRAM



*Nəzrin Nadirli*

On May 25, Expressbank held a master class at Khazar University, organized by the Career Center. The master class was attended by the dean of School of Economics and Management Jeyhun Mammadov, undergraduate students of the 3rd-4th year and graduate students majoring in Computer Science, Computer Engineering. The purpose of the event was to familiarize students with Expressbank's team members and organizational structure, to create career and internship opportunities for young people, and to familiarize them with the competitions, test interviews, and banking business.

Nigar Isayeva, a specialist of Expressbank's Training and Education Department, gave information about competitions organized by the bank, development opportunities related to career in the company, transparency, innovation and other issues important for the bank.

Service specialists - Lala Salmanova and Hashim Alizade talked about the principles of customer recognition, and at this time, as in other parts of the training, in addition to providing information, questions and answers were conducted interactively.

Employees of the bank, Nazrin Nadirli and Samir Osmanov, shared their valuable information about sales with the students, and at that time, a competition was held, which was one of the most interesting parts



*Həşim Əlizadə*





*Ceyhun Məmmədov*

yarışın sonunda tələbələrin üçü də hədiyyələr ilə təltif olundu.

İşçilərin işə cəlb olunması və motivasiya şöbəsinin müdiri Cəmilə Dadaşova iki gənc ilə nümunə xarakterli sınaq - müsahibə keçirdi.

Təlimin sonunda İnsan resursları Departamentinin direktoru Ləman İmanova tələbələrə sertifikat təqdim etdi.



*Ayşə Vəliyeva*



*Cəmilə Dadaşova*



*Samir Osmanov*




*Nigar İsayeva*

of the master class. 3 volunteers- Ayshe Valiyeva, Aygun Salimova, Nurlan Mammadov were asked to "sell" the items given to them to other students and a vote was held, at the end of the competition all three students were awarded with gifts.

Jamila Dadashova, head of the Employee Engagement and Motivation Department, conducted an exemplary test-interview with two young people.

At the end of the training, the director of the Human Resources Department, Leman Imanova, presented the students with certificates.



*Aygün Səlimova*



*Nurlan Məmmədov*

# “XƏZƏR”İN “BREND TƏLƏBƏ”LƏRİNƏ SERTİFİKAT TƏQDİM OLUNDU



*İradə Xəlilova Əfsanə Dəmirçiyeva*



*Ceyhun Məmmədov Günel Ocaqverdiyeva*

Mayın 25-də AzEdu şirkəti tərəfindən Xəzər Universitetindən seçilmiş 10 “Brend tələbə”nin layiq görüldüyü təltifnamələrin təqdimatı oldu.

Təltifnamələri “Brend tələbə”lər - Əfsanə Dəmirçiyeva, Elyana Hüseynova, Ləman Həşimova, Günel Ocaqverdiyeva, Almaz Cəfərova, Afət Əhmədova, Şəfəq Qasımova, Ceyran Heydərova, Gülal Hacıməmmədova və Zeynal Mərdanlıya Xəzər Universitetinin rektoru İradə Xəlilova, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Təbiət elmləri və mühəndislik fakultəsinin dekan müavini Vəfa Aslanova təqdim etdilər. İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli tədbirdə iştirak edirdi.

Qeyd edək ki,“Brend tələbə”lər bu ilin fevral ayında AzEdu tərəfindən universitetlərin təqdimatı əsasında hər universitetdən 10 nəfər olmaqla müəyyənləşib (ətraflı: “Xəzər Xəbər” jurnalı, 2023-cü il, fevral nömrəsi – 425).




*Elyana Hüseynova*




*Vəfa Aslanova Ləman Həşimova*



*Almaz Cəfərova*

# KHAZAR UNIVERSITY'S "BRAND STUDENTS" PRESENTED CERTIFICATE



*Afət Əhmədova*



*Şəfəq Qasımova*

On May 25, AzEdu company presented award certificates to 10 "Brand students" selected from Khazar University.

Certificates were awarded to "Brand students" - Afsana Demirchiyeva, Elyana Huseynova, Laman Hashimova, Gunel Ojagverdiyeva, Almaz Jafarova, Afat Ahmadova, Shafag Gasimova, Jeyran Heydarova, Gulal Hajimammadova and Zeynal Mardanli by Khazar University rector Irada Khalilova, dean of the School of Economics and Management Jeyhun Mammadov, deputy dean of the School of Science and Engineering Vafa Aslanova. Public Relations and Media director Alovsat Amirbeyli participated in the event.

Note that "Brand students"were determined by AzEdu in February of current year on the basis of the presentation of universities, including 10 people from each university (more: "Khazar Review" Jurnal, 2023, February number-425).




*Ceyran Heydərova*



*Zeynal Mərdanlı*




*Gülal Hacıməmmədova*

## XƏZƏR UNİVERSİTETİNİN İNFORMASİYA TEXNOLOGİYALARI ŞÖBƏSİNİN DİREKTORU AKTA-YA ÜZV SEÇİLİB

Xəzər Universitetinin İnformasiya texnologiyaları şöbəsinin direktoru Fərid Musayev Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasına (AKTA) üzv seçilmişdir.

AKTA ölkədə kibertəhlükəsizlik sisteminin gücləndirilməsinə, müvafiq sahədə tədbirlərin əlaqələndirilməsinə və inkişafına dəstəyin verilməsinə yönəlmiş qeyri-kommersiya təşkilatıdır. AKTA, həmçinin, informasiya-kommunikasiya texnologiyaları və kibertəhlükəsizlik istiqamətində fəaliyyət göstərən mütəxəssislərin, şirkət və təşkilatların vahid platforması, gələcəyə təhlükəsiz baxışın təminatçısıdır.

## DIRECTOR OF INFORMATION TECHNOLOGIES OFFICE OF KHAZAR UNIVERSITY ELECTED A MEMBER OF ACSO

Farid Musayev, director of the Information Technologies Office of Khazar University, was elected a member of the Association of Cyber Security Organizations of Azerbaijan (ACSO).

ACSO is a non-profit organization aimed at strengthening the cyber security system in the country, coordinating measures in the relevant field and providing support for its development.

ACSO is also a unified platform of specialists, companies and organizations operating in the direction of information and communication technologies and cyber security, and a provider of a safe vision of the future.

## TİBB MÖVZUSUNDA SEMİNAR

Mayın 25-də Xəzər Universitetində “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə xaricdə doktorantura təhsili” proqramı çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Xəzər Universiteti ilə üçtərəfli müqavilə əsasında Birləşmiş Krallığın "Imperial College London" Universitetində təhsil alan doktorant Nərmin Axundovanın Zoom platforması vasitəsilə onlayn seminarı təşkil edilmişdir.

Seminarda Nərmin Axundova hazırda üzərində çalışdığı elmi tədqiqat haqqında məlumat vermiş və əldə etdiyi ilkin nəticələri təqdim etmişdir. Çıxışda xroniki obstruktiv ağciyər xəstələri nümunəsi üzərində əzələ itkisinə yol açması ehtimal edilən bioloji yollardan, həmin mexanizmlərdə iştirak edən genlərdən və bu genlərin tənzimlənməsində rol aldığı ehtimal edilən mikroRNA-lardan bəhs edilmişdir.

Seminar Həyat elmləri departamentinin akademik heyəti və tələbələrinin marağını cəlb etmiş və mövzu ətrafında müzakirələr aparılmışdır.

## WORKSHOP ON MEDICINE

On May 25, an online seminar of Narmin Akhundova, the doctoral student pursuing her PhD at "Imperial College London" University, UK, under the tripartite agreement with the Ministry of Education of the Republic of Azerbaijan and Khazar University within the program "Doctoral Education Abroad to Increase the International Competitiveness of the Higher Education System in the Republic of Azerbaijan for 2019-202, was organized through the Zoom platform at Khazar University.

At the seminar, Narmin Akhundova gave information about the scientific research she is currently working on and presented the preliminary results obtained. In the speech, the biological pathways that are beleived to lead to muscle loss, the genes involved in those mechanisms, and the microRNAs that are supposed to play a role in the regulation of these genes were discussed in the sample of chronic obstructive pulmonary disease patients.

The seminar aroused the interest of the academic staff and students of the Department of Life Sciences, and discussions were held on the topic.

## KİM-İN DİREKTOR MÜAVİNİ SABANÇI UNİVERSİTETİNDƏ

Mayın 22-26-da Xəzər Universiteti Kitabxana İnformasiya Mərkəzinin (KİM) direktor müavini Aytac Misgərli Erasmus+ İşçi heyətinin mübadiləsi proqramı (KA 107) çərçivəsində Sabancı Universitetinin (Türkiyə) təşkil etdiyi Beynəlxalq İşçi Həftəsində iştirak etdi.



*Soldan 3-cü Aytac Misgərli*

Tədbirə Azərbaycan, Hindistan, İndoneziya, İsrail, Malayziya, Peru, Rusiya, İran və s. ölkələrdən nümayəndələr qatılmışdı.

Həftənin birinci günü müxtəlif ölkələrdən gələn nümayəndələrin öz universitetləri haqqında təqdimatları oldu. Növbəti günlər Sabancı Universitetinin nümayəndələrinin təqdimatları, təlimlər, seminarlar, eyni zamanda mədəni tədbirlər keçirildi. Səfər çərçivəsində İstanbul şəhərində yerləşən Topkapı Sarayı, Yerebatan Sarnıcı və Tekfur Sarayına səfərlər təşkil olundu.

Tədbirin sonunda hər bir iştirakçı Sabancı Universitetinin Sosial Elmlər fakültəsinin dekan müavini tərəfindən sertifikatla təltif olundu.

## DEPUTY DIRECTOR OF LIC AT SABANCI UNIVERSITY

On May 22-26, Khazar University Library Information Center (LIC) Deputy Director Aytaj Misgarli participated in the International Staff Week organized by Sabancı University (Türkiye) as part of the Erasmus+ Staff Exchange Program (KA 107).

Representatives from Azerbaijan, India, Indonesia, Israel, Malaysia, Peru, Russia, Iran and other countries participated in the event.

On the first day of the week, representatives from different countries made presentations about their universities. The following days, presentations of representatives of Sabanci University, trainings, seminars, as well as cultural events were held. As part of the trip, visits to Topkapı Palace, Basilica Cistern and Palace of the Porphyrogenitus in Istanbul were organized.

At the end of the event, each participant was awarded a certificate by the deputy dean of the Faculty of Arts and Social Sciences of Sabancı University.



# XƏZƏR UNİVERSİTETİ REKTORUNUN MEKSİKA SƏFİRİ VƏ MEKSİKALI DEPUTATLA GÖRÜŞÜ

# KHAZAR UNIVERSITY RECTOR'S MEETING WITH MEXICAN AMBASSADOR AND MEXICAN MP

*Maria Viktoria Romero Kabalyero, İradə Xəlilova, Elvia Vixil*

Mayın 27-də Bakıdakı Museum İnn restoranında Xəzər Universitetinin rektoru İradə Xəlilova ilə Meksikanın Azərbaycandakı səfiri Maria Viktoria Romero Kabalyero və meksikalı deputat Elvia Vixil arasında işgüzar görüş olmuşdur.

Qeyd edək ki, Elvia Vixil Bakıda keçirilmiş "Minalara qarşı hərəkət: Dayanıqlı İnkişaf Məqsədlərinə çatmağın yolu" adlı 2-ci Beynəlxalq Konfransda (24-26 may 2023) iştirak edib.

Elvia Vixil ilə görüşdə Matamoros Texniki Universitet ilə Xəzər Universitetinin əməkdaşlıq layihəsi haqqında ilkin müzakirələr aparılıb. Qeyd olunub ki, əməkdaşlıq hər iki ölkənin səfirliklərinin iştirakı ilə video-formatda görüşlərin keçirilməsi və təhsil müəssisələri tərəfindən əməkdaşlıq sahələrinin müəyyən olunması ilə davam edəcək.

On May 27, a business meeting was held between Khazar University Rector Irada Khalilova, Mexican Ambassador to Azerbaijan Maria Victoria Romero Caballero and Mexican MP Elvia Vigil at the Museum Inn restaurant in Baku.

Note that, Elvia Vigil participated in the 2nd International Conference (May 24-26, 2023) called "Mine Action – The Path to Reaching Sustainable Development Goals" held in Baku.

In the meeting with Elvia Vigil, preliminary discussions were held about the cooperation project between Technical University of Matamoros and Khazar University. It was noted that the cooperation will continue with the participation of the embassies of both countries, holding meetings in video format and identifying areas of cooperation by educational institutions.

## MİLLİ HİDROMETEOROLOGİYA XİDMƏTİNDƏ "METEOROLOGİYA VƏ İQLİMŞÜNASLIQ" FƏNNİ ÜZRƏ DƏRS

Mayın 27-də Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin II kurs tələbələrinə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətində "Meteorologiya və İqlimşünaslıq" fənni (fənn müəllimi Cavid Hüseynov) üzrə məşğələ dərsi keçirildi.



*Cavid Hüseynov*

Milli hidrometeorologiya xidmətinin mütəxəssislərinin də iştirak etdiyi məşğələdə tələbələrə hidrometeoroloji müşahidə şəbəkəsi, erkən xəbərdarlıq sistemləri, hidrometeoroloji stansiya və məntəqələrdə istifadə edilən cihaz və avadanlıqlar, müşahidə məlumatlarının işlənməsi, proqnoz-xəbərdarlıqların hazırlanması və ötürülməsi haqqında ətraflı məlumatlar verildi.

Sonda müəllim Cavid Hüseynov səmərəli əməkdaşlığa və yaratdıqları şəraitə görə xidmətin rəhbərliyinə təşəkkür etdi.

## LESSON ON "METEOROLOGY AND CLIMATOLOGY" AT NATIONAL HYDROMETEOROLOGICAL SERVICE

On May 27, the second-year students of Khazar University's Department of Geography and Environment held a training class on the subject "Meteorology and Climate Science" (subject instructor Javid Huseynov) at the National Hydrometeorological Service of the Ministry of Ecology and Natural Resources.

The students were given detailed information about the hydrometeorological observation network, early warning systems, devices and equipment used in hydrometeorological stations, processing of observational data, preparation and transmission of forecasts and warnings in the training, which was also attended by specialists of the National Hydrometeorological Service.

In the end, the instructor Javid Huseynov thanked the management of the Service for effective cooperation and the conditions created.

# "XƏZƏR"İN TƏLƏBƏSİNƏ "PATRIOTS AWARDS" TƏQDİM OLUNUB
# KHAZAR UNIVERSITY STUDENT RECEIVES "PATRIOTS AWARDS"



*Şahin Əliyev* *Rəvan Zeynalov*

Mayın 30-da "Ay işığı" restoranında "Number One Production"ın təşkilatçılığı (rəhbəri Rəvan Zeynalov), F-"Holding MMC" şirkətinin baş sponsorluğu, "Milan Hospital"ın xüsusi sponsorluğu ilə şəhid, qazi və aztəminatlı ailələrdən olan, həmçinin fiziki məhdudiyyətli 50 uşağın kiçik toyu təşkil olunub.

Tədbirdə şəhid ailələri, qazilər, millət vəkilləri, iş adamları, incəsənət ustaları və digərləri iştirak ediblər.

Tədbirdə Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin 3-cü kurs tələbəsi, "Əbədi Birlik" Gənclər İctimai Birliyinin təsisçisi və sədri, baş iqamətgahı Pakistanda yerləşən Beynəlxalq Qlobal Sülh Zənciri (Global Peace Chain) təşkilatının Qlobal sülh səfiri Şahin Əliyev "Number One Production"ın "Patriots Awards" ("Vətənpərvərlik mükafatı") mükafatına layiq görülüb. Bu mükafat şəhid və qazilərin, aztəminatlı ailələrin 50 uşağının kiçik toyuna vəsilə olan şəxslərə təqdim edilir.

On May 30, a circumcision cermony of 50 children from martyrs, veterans and low-income as well as physically disabled families, was organized by "Number One Production" (headed by Ravan Zeynalov), sponsored by F-"Holding LLC", and the special sponsor of which was "Milan Hospital", in the restaurant "Ay işığı"(" Moonlight")

At the event, Shahin Aliyev, the 3rd-year student of Khazar University's School of Economics and Management, founder and chairman of the "Eternal Union" Youth Public Union, Global Peace Ambassador of the International Global Peace Chain, headquartered in Pakistan, was awarded the "Patriots Awards" by "Number One Production". This award is presented to those who have arranged the circumcision ceremony of 50 children of martyrs and veterans, low-income families.

# SEMİNAR: “MÜHƏNDİSLİKDƏ AKTUAL MÖVZULAR”
# SEMINAR: "HOT TOPICS IN ENGINEERING"



*Erol Kurt*



Mayın 30-da Fizika və elektronika departamentində Türkiyənin Qazi Universitetinin Texnologiya fakültəsinin Elektrik - elektronika mühəndisliyi departamentindən dəvət olunmuş Prof. Dr. Erol Kurt tərəfindən "Mühəndislikdə aktual mövzular" adlı seminar keçirildi. Seminarda Erol Kurt hazırda mühəndislik elmlərində olan yeniliklər haqqında məlumat verdi. Seminar müzakirə şəklində aparıldı.

Prof. Dr. Erol Kurt 2004-cü ildə “Fırlanan maqnit mayelərinin qeyri-sabitlikləri” mövzusunda dissertasiya müdafiə edərək, fəlsəfə doktoru elmi dərəcəsi almış və 3 il Türkiyə Atom Enerjisi Təşkilatının Ar-Ge Departamentində çalışmışdır. O, Bərpa Olunan Enerji Sistemləri üzrə Avropa Konfransı (ECRES), Mexanika, Kompüterlər və Elektrik üzrə Fənlərarası Konfrans (ICMECE) kimi silsilə konfransların təsisçisi, sədri və bəzi nüfuzlu jurnalların qonaq redaktorudur. Enerji Sistemləri Jurnalının (dergipark.org.tr/jes) yaradıcısı və baş redaktoru, Türkiyə Elmi Araşdırmalar Vəqfinin (TÜBAV) üzvüdür.

On May 30, a seminar entitled “Hot Topics in Engineering Sciences” was held at the Department of Physics and Electronics by Prof.Dr. Erol Kurt, who was invited from the Department of Electrical and Electronics Engineering of the Faculty of Technology of Gazi University in Türkiye. At the seminar, Erol Kurt gave information about current innovations in engineering sciences. The seminar was held in the form of a discussion.

In 2004, Erol Kurt defended his dissertation on "Instabilities of Rotating Magnetic Fluids", received a Ph.D. degree and worked for 3 years in the R&D Department of the Turkish Atomic Energy Organization.

He is the founder, chairman of series of conferences like European Conference on Renewable Energy Systems (ECRES), Interdisciplinary Conference on Mechanics, Computers and Electricity (ICMECE) and guest editor of some prestigious journals. He is the founder and editor-in-chief of the Journal of Energy Systems (dergipark.org.tr/jes), a member of the Turkish Science Research Foundation (TUBAV).





# SEMİNAR: "KOMANDANIN QURULMASI VƏ EMOSİONAL İNTELLEKT"

# SEMINAR: "TEAM BUILDING AND EMOTIONAL INTELLIGENCE"



*Kəmalə Mustafayeva*



Mayın 30-da Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "İnnovasiyalar Mərkəzi"nin təşəbbüsü ilə həyata keçirilən "Gələcək üçün bacarıqlar" layihəsi çərçivəsində mentorluq proqramının iştirakçıları Kəmalə Mustafayeva və Humay Hüseynova tərəfindən "Komandanın qurulması və emosional intellekt" adlı seminar keçirilmişdir.

Seminarda İqtisadiyyat və menecment fakültəsinin, Humanitar, təhsil və sosial elmlər fakültəsinin tələbələri iştirak etmişdir. Seminarda komandanın təşkili və müasir iş mühitində əhəmiyyəti məsələlərinə toxunulmuş, tələbələrə "Business model of Canvas" modeli çərçivəsində komanda şəklində iş modeli planlaşdırmaq tapşırığı verilmişdir. Komandaların birlikdə göstərdikləri fəaliyyətləri və komanda liderlərinin çıxışları, sual-cavablar maraqla qarşılanmışdır.

Seminarın ikinci hissəsində mentor Humay Hüseynova tərəfindən emosional intellekt haqqında tələbələrlə interaktiv məlumatlandırma keçirilmişdir.

On May 30, the participants of the mentoring program within the framework of the "Skills for the Future" project implemented at the initiative of the "Innovations Center" of the State Agency for Citizen Service and Social Innovations under the President of the Republic of Azerbaijan Kamala Mustafayeva and Humay Huseynova, held a seminar entitled "Team building and emotional intelligence".

The seminar was attended by students of the School of Economics and Management, the School of Humanities, Education and Social Sciences. The seminar touched upon the issues of Organization of the team and its importance in the modern business environment, and the students were instructed to plan a business model as a team within the framework of the "Nusiness Model of Canvas". The activities of the teams and the speeches of the team leaders, questions and answers were met with interest.

In the second part of the seminar, mentor Humay Huseynova gave interactive information to students about emotional intelligence.





*Humay Hüseynova*

# XƏZƏR UNİVERSİTETİNİN ÇİN TƏDQİQATLAR MƏRKƏZİNİN "ÇİNƏ DAİR MÜHAZİRƏLƏR" LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ İLK SEMİNARI

# THE FIRST SEMINAR WITHIN "CHINA TIME LECTURES" PROJECT OF CHINA RESEARCH CENTER, KHAZAR UNIVERSITY



*Tien Diven*



Mayın 31-də Xəzər Universiteti Çin Tədqiqatlar Mərkəzinin təşkilatçılığı ilə "Çinə dair mühazirələr" layihəsinin ilk seminarı keçirilmişdir. Seminarda iştirak üçün Xəzər Universitetinin dəvəti ilə Çin İctimai Elmlər Akademiyasının nümayəndə heyəti universitetə səfər etmişdir. Qonaqları universitetin rektoru İradə Xəlilova qəbul etmiş, qarşılıqlı maraq doğuran əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Seminarda məruzəçi qismində Çin İctimai Elmlər Akademiyası Rusiya, Şərqi Avropa və Mərkəzi Asiya İnstitutunun direktor müavini, professor Tien Diven "Çin üslubunda modernləşmə və 'Kəmər və Yol' təşəbbüsü çərçivəsində xarici siyasət" mövzusunda çıxış etmişdir. Natiq müasir Çinin başlıca inkişaf məqsədinin Çin üslublu müasirləşmə olduğunu diqqətə çatdırmışdır. Eyni zamanda vurğulanmışdır ki, "Kəmər və Yol" təşəbbüsü Çinin modernləşmə siyasətinin əsas komponenti olmaqla yanaşı, həm də dünya ölkələri ilə əməkdaşlığının yeni və məhsuldar bir vasitəsidir. Bundan başqa, natiq müasir Çinin inkişaf yolu, əldə olunmuş nailiyyətlər, "Kəmər və yol" təşəbbüsü çərçivəsində qarşılıqlı mənfəət əsasında dünya xalqları ilə əməkdalıq məsələlərini dinləyicilərin diqqətinə çatdırmışdır. Sonda məruzəçiyə Xəzər Universiteti adından sertifikat təqdim edilmişdir.

Xəzər Universitetinin Çin Tədqiqatlar Mərkəzi 2022-ci ilin oktyabrında Ümumdünya Çinşünaslıq Mərkəzi ilə birgə əməkdaşlıq çərçivəsində təsis edilmişdir. Mərkəz Çin üzrə tədqiqatlar üzrə ixtisaslaşmışdır.

On May 31, the first seminar of the "China Time Lectures" project was held under the organization of the China Research Center of Khazar University. A delegation of the Chinese Academy of Social Sciences visited the university at the invitation of Khazar University to participate in the seminar. The guests were received by the rector of the university, Irade Khalilova, and opinions were exchanged on cooperation issues of mutual interest.

Professor Tien Diwen, deputy director of the Institute of Russia, East Europe and Central Asia of the Chinese Academy of Social Sciences, spoke on "China-style modernization and foreign policy within the framework of the 'Belt and Road' initiative" at the seminar. The speaker pointed out that the main development goal of modern China is Chinese-style modernization. At the same time, it was emphasized that the "Belt and Road" initiative is not only the main component of China's modernization policy, but also a new and productive means of cooperation with the countries of the world. In addition, the speaker brought to the attention of the listeners the development path of modern China, the achieved successes, and cooperation with the nations of the world based on mutual benefit within the framework of the "Belt and Road" initiative. At the end, the speaker was awarded a certificate on behalf of Khazar University.

Khazar University's China Research Center was established in October 2022 in cooperation with the World Center for Chinese Studies. The center specializes in research on China.



*İradə Xəlilova*

# XƏZƏR UNİVERSİTETİNDƏ NÖVBƏTİ KARYERA SƏRGİSİ

# NEXT CAREER FAIR AT KHAZAR UNIVERSITY

Mayın 31-də Xəzər Universitetində Karyera Mərkəzinin təşkilatçılığı ilə ənənəvi Karyera Sərgisi keçirildi. Tədbiri universitetin rektoru İradə Xəlilova açaraq, iştirakçılara uğurlar arzuladı

Sərgi nüfuzlu şirkətlərdə təcrübə keçmək və ya iş axtarışında olan gənc kadrların bir araya gətirilməsi və bacarıqlarına uyğun imkanlar əldə etmək üçün nəzərdə tutulmuşdur. Karyera Sərgisi zamanı EY, Konsis, Coca-Cola Azərbaycan, Engin, The Ritz-Carlton Baku, JW Marriot Absheron Baku, Norm, Kapital Bank, Expressbank, Bakertilly, BSC Consulting, AIESEC, Hoffman Co., Leznik Co., Barottson, Şəms tərcümə mərkəzi, Avromed, Unico, Konsis Group, İntertek, Sinteks başda olmaqla 20-dən çox şirkət öz iş və təcrübə imkanlarını Xəzər Universitetinin tələbə və məzunlarına elan etdilər. Bu sərgi sayəsində tələbələr təcrübə və iş imkanı, şirkətlər isə çox sayda istedadlı, bilikli və enerjili kadrlarla təmin olunma şansı qazanmış oldular. Və hər iki tərəf - həm şirkətlər, həm də tələbələr bu işgüzar görüşdən məmnun qaldılar.














On May 31, the traditional career exhibition was organized by the Career Center at Khazar university. The event was opened by the rector of the university Irada Khalilova and wished success to the participants. The exhibition is designed to bring together young personnel for internships in reputable companies or in search of jobs and get opportunities that match their skills. During the Career Fair, EY, Konsis, Coca-Cola Azerbaijan, Engin, The Ritz-Carlton Baku, JW Marriott Absheron Baku, Norm, Kapital Bank, Expressbank, Bakertilly, BSC Consulting, AIESEC, Hoffman Co., Leznik Co., Barottson, Shams translation center, Avromed, Unico, Konsis Group, Intertek, Sinteks, more than 20 companies announced their job and internship opportunities to students and graduates of Khazar University. Thanks to this exhibition, students got experience and job opportunities, and companies got a chance to be provided with a large number of talented, knowledgeable and energetic personnel. And both sides - both companies and students-were delighted with this business meeting.









## "XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU



*Asif Rüstəmli, Fahrettin Göktaş*

## ANLAŞMA MEMORANDUMU İMZALANDI

Bu günlərdə Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Türkiyə Cümhuriyyətinin Fırat Universiteti arasında faydalı əməkdaşlıq çərçivəsində elmi əlaqələrin inkişaf etdirilməsi niyyətilə, birgə fəaliyyətin təşkili istiqamətində iki elm və təhsil müəssisəsinin bərabərhüquqlu səylərini hüquqi müstəvidə birləşdirən Anlaşma Memorandumu imzalanmışdır.

Əməkdaşlıq sənədini Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli təsdiqləmişdir. Fırat Universitetinin rəsmi dəvəti ilə Elazığ şəhərində səfərdə olan, müvafiq əlaqələrin kordinatoru, filologiya elmləri doktoru, professor Asif Rüstəmli institut tərəfindən təsdiqlənmiş Anlaşma Memorandumunu imza üçün Fırat Universitetinin rektoru, Prof.Dr. Fahrettin Göktaş cənablarına təqdim etmişdir.

Memorandum ilkin olaraq beş il müddətinə qüvvədə qalmaqla Azərbaycan-Türkiyə ədəbi əlaqələrinin birgə tədqiq edilməsi, mədəniyyətlərarası dialoqun təşkili, Türk xalqlarının folklorunun müştərək araşdırılması, beynəlxalq layihə və proqramların həyata keçirilməsində tərəflərin nümayəndələrinin müştərək iştirakının təmin edilməsi, razılaşdırılmış fəaliyyət çərçivəsində alim və mütəxəssislərin mübadiləsi, onların peşəkar bacarıqlarının təkmilləşdirilməsinin təmin edilməsi, elmi-tədqiqat institutları, kitabxana və arxivlərdə tədqiqat işlərinin həyata keçirilməsinə şərait yaradılması, qarşılıqlı əhəmiyyət kəsb edən müştərək seminar, simpozium, elmi konfrans, toplantı və sərgilərin keçirilməsi və s. mühüm əhəmiyyət kəsb edən fəaliyyət istiqamətlərini özündə əks etdirir.

Türkiyə Cümhuriyyətinin Fırat Universitetində 2023-cü il 18 may tarixində Anlaşma Memorandumunun imzalanma mərasimi təşkil edilmişdir. Mərasimdə Universitetin rektoru, Prof.Dr. Fahrettin Göktaş, Universitetin elmi işlər üzrə prorektoru, Prof.Dr. Soner Özgen, İnsani və Sosial Bilimlər Fakültəsinin dekanı Prof.Dr. Əbdülhəlim Aydın, dekan yardımçısı Dos.Dr. Seda Arıkan, Çağdaş Türk ləhcələri və ədəbiyyatları bölümünün öyrətim üyesi, TÖMER-in müdiri, Dos.Dr. Süleyman Kaan Yalçın, araşdırmaçı, doktor Veysəl Qaraca, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən baş elmi işçi, filologiya elmləri doktoru, professor Asif Rüstəmli və b. iştirak etmişlər.



*Teymur Kərimli, Hafiz Paşayev, İsa Həbibbəyli, Kərim Tahirov*

# AMEA-DA GÖRKƏMLİ YAZIÇI MİR CƏLALIN 115 İLLİK YUBİLEYİ

AMEA-nın Humanitar Elmlər Bölməsi, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu və M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının birgə təşkilatçılığı ilə görkəmli yazıçı Mir Cəlalın anadan olmasının 115 illik yubileyinə həsr olunmuş "Mir Cəlal və ədəbi-tarixi proses" mövzusunda elmi sessiya keçirilib.

Tədbirdən əvvəl M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası tərəfindən təşkil edilən Mir Cəlalın əsərlərini əks etdirən sərgiyə baxış keçirilib.

Elmi sessiyanı giriş sözü ilə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli açaraq bildirib ki, Ədəbiyyat İnstitutu ölkəmizdə ədəbiyyatşünaslıq sahəsində tədqiqatların aparıldığı başlıca mərkəzdir və elmi-tədqiqat müəssisəsində görkəmli yazıçı Mir Cəlalın yubileyinin keçirilməsi ədəbiyyatşünas alimlərin mənəvi borcudur. Ötən müddət ərzində ədibin həyatının müəyyən dövrlərinin bağlı olduğu Bakı Dövlət Universiteti, Gəncə şəhəri və Qazax Müəllimlər Seminariyasında 115 illik yubileyinin qeyd olunduğunu deyən AMEA rəhbəri Mir Cəlalın 16 il Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, 1 aydan artıq müddətdə isə institutun direktor əvəzi kimi çalışdığını diqqətə çatdırıb.

Akademik İsa Həbibbəyli bildirib ki, Mir Cəlalı fərqləndirən başlıca cəhət onun universal, çoxcəhətli fəaliyyətə malik olmasıdır. O, yazıçı, ədəbiyyatşünas, publisist, pedaqoq kimi məşğul olduğu bütün sahələrin peşəkarı olmuşdur. Mir Cəlalın yaşadığı dövrü ideallaşdırmadan, sərt kommunist rejiminin ideologiyasını təbliğ etmədən yalnız obyektiv gerçəkliyi, insanın real həyatını meydana qoyduğunu deyən AMEA prezidenti ədibin bu dəst-xəttinin roman, povest, satirik-yumoristik əsərlərində də müşahidə olunduğunu söyləyib. Xüsusilə, "Həyat hekayələri", "Sadə hekayələr", "Bir gəncin manifesti" və başqa əsərlərində sadə həyat hekayələrinin, insanın mənəvi aləminin oxuculara çatdırıldığını bildirib. Vurğulayıb ki, görkəmli yazıçı epik ədəbiyyatın bütün sahələrində ərsəyə gətirdiyi mükəmməl əsərlərlə, həm də ədəbiyyatşünaslıq istiqamətindəki fəaliyyəti ilə Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutur.

Sonra M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov, dosent Aslan Salmansoy, professor Asif Rüstəmli, filologiya elmləri doktoru İsmayıl Kazımov, filologiya elmləri doktoru Əlizadə Əsgərli, filologiya üzrə fəlsəfə doktoru Sevinc Əliyeva, Dilarə Adilova və Fidan Rzayeva müxtəlif mövzularında məruzələrlə çıxış ediblər.

AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli və Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru Vaqif Yusifli Mir Cəlalla bağlı xatirələrini bölüşüblər.

Sonda çıxış edən ADA Universitetinin rektoru, professor Hafiz Paşayev Mir Cəlalın yubileyinin Akademiya miqyasında qeyd olunmasının təqdirəlayiq hal olduğunu bildirib. Məruzələrin ciddi elmi araşdırmalar əsasında hazırlandığını bildirən Hafiz Paşayev tədqiqatçıların məlum olmayan məsələlərə toxunduğunu, gələcəkdə onun yaradıcılığının yeni tərəflərinin açılmasına gətirib çıxaracağını deyib.

**Gülnar Səma,**
***Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,***
***İctimaiyyətlə əlaqələr şöbəsi***



# ATIN DASTANI

**Hamlet İsaxanlı**

## Atın əhliləşdirilməsi

Atkimilər və ya atgillər ailəsinə (elmi terminologiyaya görə *Equidae*) atlar, eşşəklər, qatırlar, zebrlər, vəhşi atlar və onların yoxa çıxmış növləri aid edilir. Atgillər ailəsinin Amerika mənşəli olduğu fikri formalaşıb, onun 54-55 milyon il əvvəl mövcud olduğu bəllidir. Əvvəl çox balaca (dovşan, sonra it boyda) olan at, mümkündür ki, otlaqların artması nəticəsində böyüməyə başladı, ayaqları uzandı, qaçmağa alışdı. İlk atların qabaq ayaqları 4, dal ayaqları 3 dırnaqlı idi, sonra qabaq ayaqları da 3 dırnaqlı oldu (32-37 milyon il əvvəl). Get-gedə atın qaçışı sürətləndi və yan dırnaqları qısaldı, nəticədə at təkdırnaqlı oldu; hardasa 5 milyon il əvvəl at indiki şəklini aldı demək mümkündür. Təkdırnaqlılıq atı ən yaxşı qaçan heyvanlardan birinə çevirdi.

Vəhşi atın əhliləşdirilməsi işinin hardasa 5-6 min il əvvəl Cənubi Sibir və Qərbi Orta Asiya tərəflərdə baş verdiyi güman edilir. Atın əhliləşdirilməsi bəşər tarixinin ən böyük uğurlarından biridir. At qoyun və inəkdən sonra əhliləşdirildi. Başlanğıcda ola bilər ki, qoyun və inəklərdə olduğu kimi atın da südündən, ətindən və dərisindən istifadə edirdilər. Lakin, minilməyə başladıqdan sonra hörməti çox artan atın əti və südündən istifadə davam etsə də, onlar get-gedə arxa plana keçdi, nisbətən yaxın zamanlarda isə bir çox yerdə tamam unuduldu. Hazırda ölkələri at əti yeyən və yeməyən kimi iki hissəyə ayırmaq mümkündür; at əti yeyən də çoxdur, yeməyən də.

Vəhşi atların buzlaşma dövründə, təqribən 2 və ya 2.5 milyon il əvvəl Amerikadan Asiyaya gəlmə yolu insanların Asiyadan Amerikaya yayılma yollarının tərs istiqamətinə uyğun gəldiyi düşünülür (hər ikisi qurumuş Bering boğazından keçərək). Sonralar Amerikada atın kökü kəsildi (7.5 - 10 min il əvvəl); bunun tam səbəbi məlum deyil – iqlim dəyişikliyimi, xəstəlikmi, insanların ovlamasımı, ya daha nə? At ailəsindən olan zebrlər Afrika əhlidirlər. Bu "zolaqlı atlar"ın əcdadları Afrikaya gəlmiş vəhşi atlardırmı? Zebraların zolaqları Afrikadamı əmələ gəlib? Piqment dəyişməsi nəticəsində tünd rəng üzərində əmələ gələn bu ağ zolaqların dərini deşib qan içən və uçan dombagöz gecə böcəklərinə qarşı müdafiə

sistemi kimi təkamül etdiyini deyənlər var (*Josef H. Reichholf. Das Ratsel der Menschwerding – Die Entstehung des Menschen im Wechselspiel der Natur. Deutscher Taschenbuch verlag, 1990. / İnsanın Evrimi. Beş Milyon Yıllık Macera. Say, 2016; 10-cu fəsil*).

Atın əhliləşdirilməsi bir qədər gec baş verdi, atdan arabalarda istifadənin tarixi daha da üzü bəriyədir: "-3"-cü minilliyin sonları və ya "-2-"ci minilliyin əvvəlləri. At da it kimi insanın dostu oldu, hərçənd ki, atın əti və südündən də istifadə edilirdi – bir sıra ölkələrdə indi də. At südündən qımız adlı içki hazırlanır. Atın quyruq tükləri sərtliyi ilə seçilir; ondan simli musiqi alətlərini çalmaq üçün yay hazırlanır. Atın sidiyindən əczaçılıqda istifadə olunur.

Qədərin cilvəsinə bax –Amerika mənşəli at Amerikanı tərk etdi və əhliləşmiş at Amerikaya ancaq 16-cı əsrdən başlayaraq bu qitəni kəşf və istila edən avropalılarla gəldi. İspaniyalı konkistador, kolonizator Hernán (Hernando) Cortés (1485-1547) indiki Meksika ərazisində yerləşən Aztec dövlətini fəth edərkən döyüşçülərinin mindikləri atları yerlilər möcüzəli güc, at və süvarini birləşmiş məxluq sayır, süvarilərin açdığı atəşi atın ağzından alov püskürməsi kimi qəbul edirdilər. Yəqin ki, çox qədimlərdə yunanlar da, sonralar Aztecdə olduğu kimi, ilk dəfə süvariləri görəndə onları bədəninin yuxarı hissəsi insan, aşağı hissəsi və ayaqları at olan məxluqlar, insan-at və ya at-insanlar sanmış, onlara kentavr adı verib əfsanələşdirmişlər. Kentavrlar fiziki cəhətdən insanlardan güclü olmaqla ağıllı məxluqlar sayılmış, həm zor işlətməyi sevmiş, həm də cəngavər ola bilmişlər.



*Eradan əvvəl 510-500-cü illərə aid Kentavr təsviri. Vatikan muzeyi. Roma*



*1-2-ci əsrlərə aid Kentavr heykəli. Luvr muzeyi. Paris*

## At, döyüş arabaları və atçılıq

Atlar irigözlü heyvanlardır (sevimli ata "alma gözlüm" deyiblər). Quruda yaşayan məməlilər arasında ən böyük gözü olan atdır. At qoxu biləndir – insandan daha yaxşı, amma bu işdə itə çatmaz. Ev atının orta yaşam müddəti 25-30 ildir, az da olsa, daha çox yaşayan atlara da rast gəlinir. Atı yüksək qiymətləndirən çox atalar sözü mövcuddur, məsələn, "At, arvad, silah əmanət edilməz", "At ayağı külək olar, ozan dili yüyrək", "At izi it izinə qarışmaz", "At minəndə vərəm olmaz". Atla rəftar və işləri düzgün ardıcıllıqla görmək barədə atalar sözləri: "Atı qamçı aparmaz, arpa aparar", "At almamış axur hörmə", "At oynatmaq" ifadəsi məcazi mənada qarşıdakından çox güclü olmaq, onu saymamaq deməkdir.

Atın boynunun üst hissəsindəki uzun tüklərə atın yalı və ya yalmanı deyilir.

*Min Qazaxda köhlən ata*
*Yalmanına yata-yata...*
(S. Vurğun, "Azərbaycan")

Heyvanlardan fərqli olaraq insan öz uşağını qucağında daşıya bilir (iki ayaq üstə dik yeriмək nəticəsində), üstəlik, özü ilə atın üstündə də apara bilir. Əhliləşmiş heyvanlar və təkər birlikdə arabanı, o cümlədən döyüş arabalarını meydana çıxardı; sonuncuların Mesopotamiyada, 5 min ildən üzü bəri, 4 min ildən əvvəl əmələ gəldiyi düşünülür. Sonra Çində də döyüş arabaları əsas savaş vasitəsinə çevrildi, Çinin qonşuları və rəqibi olan hun, göytürk və uyqurlar isə at belində savaş ustası idilər. Sanki əvvəl döyüş arabaları ilə, daha sonra at üstündə döyüş sənəti əmələ gəldi. Döyüş arabalarında adətən iki və daha çox adam olurdu: arabanı sürən və arabada dayanıb ox atan(lar). Əlbəttə, araba müəyyən yol tələb etdiyinə görə nisbətən düzən yerlərdə işə yarayırdı. At üstündə isə bir tək döyüşçü vuruşur, atını hər şəraitdə hər tərəfə sürə bilir, yəhər və üzəngi ona hər tərəfə ox atmaq imkanı verirdi. Beləliklə, at aranda da, dağda da, dinc həyatda da, savaşda da, qaçmaq istəyəndə də, təqib edəndə də, yük daşıyanda da, heyvan sürülərini idarə edəndə də (atlı çoban) insanın əsas həmdəmi, köməkçisi, dostu oldu. At insanların sevimli heyvanına çevrildi.

Təqribən 17 min il əvvələ aid edilən Lascaux mağara divarlarında qədim rəssam vəhşi at şəkli çəkmişdir. (-1400) -cü illər ətrafında Mitanni adlanan ərazidə (Cənub-şərqi Anadoluda) Kikkuli adlı müəllif Hitit (Het) dilində atçılıq haqqında, döyüş arabaları üçün atların təlimi barədə ətraflı kitab yazmışdır. Sokrat`ın tələbəsi Ksenofon və Arrian atları saxlama və təlim etmə, onlarla necə düzgün rəftar etmə, döyüşə necə hazırlama barədə bələdçi kitablar yazmışlar. Herodot, Pliny, Strabon kimi antik dövr tarixçi, coğrafiyaçı və ensiklopediyaçıları vəhşi atlardan bəhs etmişlər.



*Lascaux mağarasında Üst Paleolit dövrünə aid at təsviri. Fransa*

## Yəhər, yüyən, üzəngi, nal

Atın əhliləşdirilməsi sürətli nəqliyyat, daşıma və savaş işində böyük sıçrayışa səbəb oldu. Uzun məsafələri qısa zamanda qət etmək, atın qaçış gücünü və davamlılığını artırmaq, savaş zamanı at belində çevik hərəkət etmək imkanı əldə etmək məqsədilə, bir sözlə, minicinin at üstündə özünü rahat hiss etməsi, atı yaxşı idarə edə bilməsi üçün müəyyən vasitələrə, alətlərə ehtiyac yarandı.

Atın dırnaqları sərt yerlərdə, məsələn daşlıqda yeyilməsin deyə, təbii sürətdə, dırnaqların aşağısını, yerə toxunan alt tərəfini nə şəkildəsə qorumaq fikri yarandı. Əvvəlcə dəri və ya bəzi ağac-lif parçaları ilə dırnaqların altını örtüb, onu kəndir və ya dəri vasitəsilə atın ayağına

möhkəm bağlayırdılar. Sonralar metal nal düzəldib onu mismarla atın ayağına bərkitməyə başladılar; bunun ilk dəfə harada və nə vaxt baş verdiyi dəqiq bilinmir. Nallanmış at daha dözümlü və etibarlı oldu.

Atı rahat şəkildə minmək, sürmək və yönəltmək üçün qədim zamanlardan bəri minici ilə at arasında yaxınlıq yaradan yəhər, üzəngi və yüyən kimi təbii köməkçi vasitələr yaradıldı. İnsanın minik və qoşqu vasitəsi kimi istifadə etdiyi fil, dəvə və öküz kimi heyvanların belinə də uyğun yəhər qoyulur. Eşşəyin belinə qoyulan palan içi əsasən samanla dolu örtükdür. Yəhər qayışlarla atın belinə bağlanan, at minənin oturması üçün xüsusi örtük– əşyadır. Yəhər bir tərəfdən adamın at üstündə rahat oturmasına, digər yandan isə atın belinin qorunmasına xidmət edir. Üzəngi yəhərə bağlanılır, ayaq qoyub ata minməyə və at belində müvazinəti saxlamağa kömək edir. Yəhər və üzəngili at üstündə döyüşçü daha rahat və daha dəqiq ox və nizə atmaq, qılınc işlətmək imkanı əldə etmişdir. Yəhərin atın əhliləşdirilməsindən sonra çox keçmədən böyük köçəri xalqlar (sak, kimmer, sarmat...) tərəfindən kəşf edildiyi düşünülür. Üzənginin 4-5-6-cı əsrlərdə cənubi Sibirdə, hun, türk və çinlilər tərəfindən ortaya çıxarıldığı deyilir (*И. Л. Кызласов. О происхождении стремян. Советская археология, 1973, № 3, с. 24-36*). Üzəngini Avropaya və İslam dünyasına Asiya tərəfdən axın edən köçərilər gətirdilər (7-8-ci əsrlərdən başlayaraq). Yüyən atı idarə etmək və yönəltmək üçün atın başına geydirilən və ağzına keçirilən əşya – vasitədir.



*Yəhər*



*Yüyən*



*Üzəngi*



*Nal*

# Cəld qaçanlar

At insanın sürətlə yerdəyişməsini və daşımanı, böyük köçlərin quruda uzaq məsafələr qət etməsini təmin etdi. At üstündə çapmaq atın əhliləşdirilməsindən əvvəlki dövrdə, yüz min (milyon!?) illər ərzində məsafəni ancaq yeriməklə, piyada olaraq qət edən insanın yerdəyişmə sürətini kəskin surətdə artırdı. Canlılar aləmində qaçış sürəti çox zaman həyati vacib, ölüm ya olum məsələsinə çevrilir. Yırtıcılar qaçan ovu təqib etmək üçün, təqib olunanlar isə canlarını qurtarmaq üçün – hər ikisi qaçmağa məcburdur.

İngilisdilli informasiya məkanında belə bir populyar deyim mövcuddur:

*Every morning in Africa a gazelle wakes up. It knows it must outrun the fastest lion or it will be killed. Every morning in Africa a lion wakes up. It knows it must outrun the slowest gazelle or it will starve. It doesn't matter whether you're a Lion or a Gazelle - when the sun comes up, you'd better be running.* (Hər səhər Afrikada bir ceyran oyanır. O bilir ki, aslandan sürətli olmasa, öləcək. Hər səhər Afrikada bir aslan oyanır. O bilir ki, ceyrandan daha sürətli olmasa, ac qalacaq. Fərqi yoxdur, aslansan ya ceyran, günəş doğulanda qaçmalısan).

Bu deyim əsasında bir şeir yazdım:

*Hər gün bu diyarda*
*Bir ceyran oyanır*
*Cəldqaçan aslandan*
*Daha bərk qaçmasa*
*Quş kimi uçmasa*
*Ceyran yaxşı qanır*
*Günün bir çağında*
*Aslan caynağında*
*Boğulub öləcək...*

*Hər gün bu diyarda*
*Bir aslan oyanır*
*Astagəl ceyrandan*
*Daha bərk qaçmasa*
*Quş kimi uçmasa*
*Aslan yaxşı qanır*
*Günün bir çağında*
*O, göz qabağında*
*Acından öləcək...*

*Aslansan, ya ceyran*
*Böyük fərqi yoxdur*
*Tək məsələ budur:*
*Kim daha cəld qaçır?!*
*Gün ki, işıq saçır*
*Çox ki şirindir can*
*Aslansan, ya ceyran*
*Qaçmağa məcbursan.*

# At nə üçündür?

Cəmiyyət inkişaf etdikcə atdan istifadə yeni çalarlar aldı, at ovçuluq və gəzintidə, oyun və yarışlarda xüsusi rol oynamağa başladı. At kübarlıq rəmzi sayıldı, sosial vəziyyətin göstəricilərindən birinə çevrildi. Kübar cəmiyyətdə at gözəl hədiyyə sayıldı. At güc və məlahəti özündə birləşdirdi. At üstündə olan insanda həmişə bir üstünlük duyğusu vardı və zaman bu duyğunu zəiflətmədi. At sevgisi davam etdi, amma, çağdaş dünyamızda at üstündə olanların sayı kəskin surətdə azaldı.

Firdovsi`nin "Şahnamə"sində Turan hökmdarı Əfrasiyab və İran şahzadəsi Siyavuş at belində çövkan oynayırdılar (Turan İran üzərində qələbə çaldı). Qədim çövkan oyunu Azərbaycan, İran və Orta Asiyada yayılmışdı, sonra bütün İslam dünyasında çox sevildi. Şah və sultanlar, əyan və bəylər, hətta kübar qadınlar da çövkan oynayırdılar. Bu oyun Hindistan və Çinə də yayıldı və çox populyar oldu. Yeni dövrdə ingilislər Hindistandan polo`nu götürüb dünyaya yaydılar. Çağdaş polo oyunu hər biri at belində dörd oyunçu olmaqla iki komandanın yarışıdır; at üstündə oturan oyunçular əllərindəki ağacla yerdəki topu (diametri 7.5 – 11 cm arası) rəqib komandanın qapısına vurmağa, qol etməyə çalışırlar.

Daşıma və minik üçün atdan başqa eşşək, dəvə, öküz və fillərdən istifadə olunurdu. Səhrada minik və yükdaşımada dəvə birinci, at ikinci rol oynadı. James Watt`un (1736-1819) elmə və texnologiyaya daxil etdiyi "At gücü" termini atın insan həyatında oynadığı böyük rolun təcəssümü kimi şərh oluna bilər. Watt buxar maşınının gücünü yük-qoşqu atlarının xüsusi seçilmiş dəyirman təkərini döndərmə gücü ilə ölçürdü. Buxar maşınları dövrü əslində ata ehtiyacı çox artırdı. Fabrik, ferma və bazarlara və oradan tələb olunan yerlərə daşıma, un dəyirmanlarının işləməsi, otun biçim və yığımı, fayton, kanal qayıqları və omnibusların hərəkəti atlar vasitəsilə təmin edilirdi. Omnibus (ingiliscə Horsebus və ya Horse-drawn omnibus) atların daşıdığı çoxsərnişinli nəqliyyat vasitəsi idi, onu avtobusların




*Omnibus. 1890-cı il*

əcdadı saymaq olar.

Hazırda mobil telefonsuz, internetsiz, avtomobillərsiz həyat mümkün olmadığı kimi, keçmişdə həyatı atsız təsəvvür etmək mümkün deyildi.

At böyük köçlərin, böyük yürüşlərin həyata keçirilməsində həlledici rol oynadı. 19-cu əsrə, dəmir yolunun kəşfinə qədər atı əvəz edə bilən heç nə yox idi, at yer üzərində ən yaxşı və ən sürətli minik vasitəsi idi. Bundan sonra da yüz ildən çox bir müddətdə at yenə də insanın yaxın köməkçisi və əzizi idi. Birinci Dünya savaşında süvarilər mühüm rol oynadılar. Birinci Dünya savaşı sonu 1919-1920-ci illər Rusiyada, Vətəndaş savaşında Semen Budennıy (1883-1973) böyük süvari orduya başçılıq etmiş, şöhrətlənmişdi.



*Semen Budennıy*

İkinci Dünya savaşında isə atın rolu çox azaldı və sonrakı illərdə atdan daha sürətli olan minik maşınları çoxaldı, adiləşdi, get-gedə kütləviləşdi və nəqliyyat vasitəsi kimi atı əvəz etdi. Çox uzaq məsafələri isə havada uçmaqla, yəni təyyarədən istifadə etməklə qət etməyə başladılar. Daşıma və şumlama kimi işlərdə də at əvəzinə uyğun olaraq yük maşını, qatar, təyyarə və traktor kimi texniki vasitələr ortaya girdi. Savaş texnikası da maşınlaşdı, tanklar və zirehli maşınlar qılınclı, tüfəngli süvari dəstələrini əvəz etdilər.



*Birinci Süvari Ordusunun trubaçıları.*
*Müəllif: Mitrofan Grekov. 1934*

# At cinsləri

Gözəl at deyəndə ata xas olan çox müxtəlif əlamətlər nəzərdə tutulur – rənglər, rənglərin kombinasiyası, baş və qaş, boyun, göz, yal, quyruq və onun duruşu, ayaqlar, dırnaqlar, fiziki güc, yeriş, davranış, naz, hirs, temperament, oynaqlıq, şahə qalxmaq, kübarlıq və s. Gözəl atdan göz çəkmək olmur, doymaq olmur. Gözəl və məşhur atlara heykəllər qoyulur. Çağdaş yüzlərlə (250 ətrafında?!) at cinsləri o qədər çox və cürbəcürdür ki, onları saymaq və səciyyələndirmək elə çətin və həcmli işdir ki, buna girişmək fikrindən uzağam. Kiçik boylu və qısa ayaqlı (eşşəyə bənzər) Poni adlı atlardan əsasən əyləncə məqsədilə, o cümlədən uşaqlar üçün istifadə edilir; ayı cinsindən olan Panda ilə at cinsindən olan Poni arasında rəmzi yaxınlıq var. Digər kiçik, miniatür at növləri də mövcuddur, məsələn qoç və ya keçi böyüklüyündə.



*Poni atlar*

Xarici görünüşcə atları bir-birindən fərqləndirən əsas əlamətlərdən biri, çox zaman birincisi onun rəngidir, atlar çox zaman öz rənginə və ya rəng kombinasiyalarına görə ad alırlar - *ağ at, boz at, kəhər at, xallı, qaşqa* kimi. Çox müxtəlif rəngli atlar mövcuddur - qırmızı-şabalıdı, qaramtıl qırmızı-şabalıdı, kəhər (açıq-şabalıdı), qara, boz (ağımtıl), ağ rəng içində qırmızı-şabalıdı, ikirəng - ağ üzərində (xallı at), qaşqa (başının ön hissəsində ağ zolaq olan at)... Peyvənd nəticəsində çoxçalarlı atlar meydana çıxır.









Şərqdə məşhur olan təmizqanlı ərəb atı dünyada ən çox sevilən at cinslərindən birinə çevrildi. Ərəb atını ən qədim və ən geniş yayılmış minik atı saymaq mümkündür. Orta boylu, möhkəm əzələli, çox dözümlü və uzunömürlü, qaynar qanlı, iri gözlü və nazik boyunlu bu gözəl və cəld at cinsinin vətəni Ərəbistan yarımadası sayılır. Uzaq məsafələrə dördayaqlı qaçışda bərabəri olmayan ərəb atı İslamlaşma, Xaç yürüşləri və Osmanlı imperiyası vasitəsilə Avropaya və sonra dünyaya yayıldı, yeni at cinslərinin yetişdirilməsində çox böyük rol oynadı. Ərəb atları əsasən qızılı-parlaq, kürən, kəhər və boz rənglərdə olur.



*Ərəb atı*

Waterloo döyüşündə (18 iyul 1815) Napoleon Morengo (və ya Ali?!) adlı ərəb atına, hersoq Wellington isə Copenhagen adlı ərəb atına minmişdi. Copenhagen uzun yaşadı.

Napoleonun atı isə savaşda ingilislərin əlinə geçdi, hazırda onun skeleti London National Army muzeyindədir. Yeri gəlmişkən, Waterloo döyüşündə külli miqdarda at itkisi baş vermişdi (azı 10 min, 40 minə yaxın deyənlər də var). Ölən, yaralanan və əsir düşən insan itkisi fransızlarda 40 minə yaxın, Britaniya-Prussiya ittifaqında isə 22 min ətrafında olmuşdu.



*Hersoq Wellington`un Copenhagen adlı atı.*
*Müəllif: Samuel Spode*



*Napoleon`un Morengo adlı atının skeleti.*
*National Army Museum. London*

* * *

Ən qədim təmizqanlı at növlərindən biri Türkmən atıdır. Orta Asiyada yetişmiş, türk və monqolların döyüş atı olmuş sürətli və dözümlü türkmən atlarının nəsli kəsilsə də, onun davamı sayılan Axal-təkə atları məşhurdur. Bu atlar Axal vahəsində məskən salmış təkə-türkmən (türk) tayfaları tərəfindən yetişdirilmişdir. Məşhur *Thoroughbred* cinsinin 17-ci əsrdə türkmən atı ilə peyvənd nəticəsi olduğu məlumdur.



*Axal-təkə atı*

Ortadan hündür boya malik, zərif dərili, iri badamı gözlü Axal-təkə atları sürətli və çox dözümlüdür, səhra şəraitində yetişib, susuzluğa ən çox davam gətirən at cinsi sayılır. Türkmən atlarının ərəb atlarına təsiri olduğunu deyənlər var, digər tərəfdən, ərəb, türkmən, bərbər və Axal-təkə atlarının şərqli bir ümumi əcdaddan törəyə bilməsi ehtimalı

da mövcuddur. Qarabağ və bir sıra rus at cinslərinin yetişməsində də Axal-təkə cinsi rol oynamışdır. Axal-təkə atlarının şöhrəti Çağdaş Türkmənistanda Atçılıq (və ya Atyetişdirmə) nazirliyinin yaranmasına gətirib çıxardı.

*Bərbər atı* - (ingiliscə Barb, Berber, Barbary horse) Şimali Afrikada, bərbərlərin yetişdirdiyi atdır. Sürət və dözümlülük cəhətdən ərəb atına oxşayır. Ərəb atından sonra yeni at cinsləri yetişdirilməsində çox rol oynamışdır.



*Thoroughbred cinsi at*

Beynəlxalq yarışlarda Ağır Avropa atları ilə yüngül qaynar qanlı şərq atlarının peyvəndi nəticəsində Avropada istiqanlı at cinsləri əmələ gəldi: Avropanın ən qədim atlarından biri– Əndəlüs atı gərək ki, bu istiqamətdə ilk addım oldu. Bu yolla 18-ci əsrdə meydana çıxan *İngilis atı* – bu uzun ayaqlı və böyük ürəkli at məşhur oldu, qaçış yarışlarında ən yüksək nəticələr göstərdi. *Thoroughbred* – Orta əsrlərdə İngiltərədə yetişdirilmiş və get-gedə dünyaya, o cümlədən Amerikaya yayılmış və çox tanınmış qaçış atlarından biridir. Adının mənası *Təmizcins* olsa da, müxtəlif cütləşmələr nəticəsində təkmilləşdirilmişdir. Amerikalı *Quarter Horse* – qısa məsafələrə qaçışda əvəzsiz olan bu at Amerikada ən çox yayılmış atdır (adı dörddə bir mil məsafəli yarışlarda şöhrəti ilə bağlıdır). Ranço və fermalarda iş atı kimi də istifadə olunur. Qaçışda böyük ad çıxarmış atlar məşhur idmançılar kimi tanınır, sevilir, möcüzə sayılırlar, məsələn, *Citation, Secretariat, Zenyatta, Black Caviar, Winx horse, Frankel*…



*Bərbər atı*



*Əndəlüs atı*



*İngilis atı*



*Amerikan Quarter Horse atı*



*Citation adlı at*



*Secretariat adlı at*



*Zenyatta adlı at*




*Black Caviar adlı at*




*Winx adlı at*



*Frankel adlı at*

Cins at yetişdirmək və mövcud cinsləri təkmilləşdirmək üçün bu işlə maraqlanan şəxslər və dövlətlər at yetişdirmə mərkəzləri (at zavodu) qurmaq işinə girişmişlər. Bu sahəyə 17-ci əsrdə xüsusi fikir verildi, sonrakı əsrlərdə bu fəaliyyət çox genişləndi. Get-gedə dövlət at yetişdirmə mərkəzləri azalmağa, uyğun özəl mərkəzlər isə sürətlə artmağa başladı. 19-cu əsrin sonlarına yaxın dünyada mövcud olan atların sayı təqribən 60 milyon idi, Rusiya 25 milyon atla dünya birincisi idi, hərçənd ki, keyfiyyətcə Rusiyada at yetişdirmə işi Avropadan, həmçinin Amerikadan açıq geri qalırdı (*Коневодство и коннозаводство. Энциклопедический словарь Брокгауза и Ефрона в 86 т. СПб., 1890-1907*).



*Çernobıl təcrid zonasında Prjevalski atı*

Vəhşi atların növləri haqqında xüsusi söhbət açmıram. 1878-1881-ci ildə tapılıb təsvir edilmiş Prjevalski atı hazırda mövcud olan yeganə vəhşi at növüdür. Digər vəhşi atların kökləri kəsilmişdir. Türklər tərəfindən "Tarpan" adı verilmiş vəhşi atların sonuncusu 1909-cu ilə aiddir. Boyu, bədən uzunluğu və ayaq uzunluğu ev atlarından daha qısa olan Prjevalski atı ilə ev atlarının fərqli əcdadlardan törədikləri qəbul olunmuşdur. Ev atı 32 cüt, Prjevalski atı isə 33 cüt xromosoma malikdir. Prjevalski atı ilə yanaşı taxi, Mongol vəhşi atı və ya Junqar vəhşi atı adları da işlənilir. Vəhşi Prjevalski atlarını indi təbiət qoynunda deyil, ancaq zooparklarda və bəzi yarıqoruq kimi yerlərdə görmək mümkündür.

## Azərbaycan atları

Azərbaycanın gözəl guşəsi Qarabağ öz ecazkar təbiəti – füsunkar dağları, dərələri, düzləri, çiçəkli çəmənləri ilə göz oxşayır. Qarabağın ən böyük zənginliyi, yəqin ki, onun nadir musiqi diyarı olmasında, böyük musiqi mərkəzlərindən biri kimi tanınmasındadır. Qarabağ sehrli diyardır, onun zənginliyini sayıb-qurtarmaq olmur – Qarabağ adı ilə şöhrət tapmış xalçalar, xarı bülbül adlı qeyri-adi məhəbbət gülü, Qarabağ atı...



*Xan adlı Qarabağ atı.*
*Müəllif: Nikolay Sverçkov 1865*

Qarabağ atının yerli türkmən, Axal-təkə və ərəb atlarının iştirakı ilə yetişdirildiyi deyilir. Qarabağ xanlığının qurucusu Pənahəli xan (1693-1763) vaxtından üzü bəri Qarabağda atçılıq inkişaf etmişdir. Pənahəli xanın oğlu İbrahimxəlil xan (1732-1806) böyük at həvəskarı idi, at yetişdirilməsinə xüsusi fikir verirdi. Sonuncu Qarabağ xanı Mehdiqulu xan (1763-1845) bu işə əhəmiyyət vermədi, lakin onun qızı Xurşidbanu Natəvan xanım (1832-1897) Qarabağ atlarının yetişdirilməsi və tanıdılması ilə həvəslə məşğul olmuşdur. 19-cu əsrdə Qarabağ atları dünya sərgilərində medallar və fəxri fərmanlara layiq görülmüşdür. Qarabağ atları, onların xüsusiyyətləri, istifadəsi və şöhrəti haqqında Avropa, Asiya və Rusiyada diplomatlar, səyyahlar, şair və



*Qarabağ atı.*
*Müəllif: Vasiliy Vereşşaqin*

yazıçılar, o cümlədən Puşkin, Lermontov, M.F. Axundov, L. Tolstoy, Qurban Səid və başqaları söhbət açmışlar. Nikolay Sverçkov və Vasiliy Vereşşaqin öz rəsmlərində Qarabağ atını canlandırmışlar. "Qarabağ sözü Rusiyada heç də coğrafi təsəvvür deyil, qeyri-adi gözəl və bərk qaçan cins at obrazı yaradırdı" (*Шагинян, М. 1946. Советское Закавказье. Моска-Ленинград: Гос. изд-во худож. лит-ры*). Rusiyada at cinslərinin yetişdirilməsi işində Qarabağ atlarının rolu şəksizdir.

19-cu əsrin sonları və 20-ci əsrin əvvəllərində Qarabağ atlarının yetişdirilməsində böhran əmələ gəlmiş, bu iş tənəzzülə uğramışdır. "SSRİ dövründə Ağdam atçılıq zavodu Qarabağ atlarının yetişdirilməsi ilə məşğul olmuşdur" (*Hamlet İsaxanlı. Mənim Qarabağım və ya Qarabağ düyünü. Xəzər Universiteti Nəşriyyatı, Bakı, 2022; s.31*). Qarabağ atları əsasən qızılı-parlaq, parıltılı kürən, həmçinin kəhər və boz rənglərdə, yalı və quyruğu əsasən tünd-şabalıdı rəngdə olur. Qarabağ atı köhlən, Axal-təkə kimi nazik dərili, zərif tüklü, cəld və dözümlüdür, dağ yerlərində xüsusi bacarıq göstərir. Qarabağ atları arasında "Sarılar" adı daşıyan qızılı-sarı cins at kübarlar arasında çox maraq doğurmuşdur. Axal-təkə ilə cütləşmə nəticəsində alınan "təkə-ceyran" cinsi də qiymətləndirilmişdir. Qarabağ atları – "Xan" Parisdə Ümumdünya sərgisində (1869) və "Meymun" Ümumrusiya sərgisində (1867) gümüş medal almışlar. 1956-cı ildə Sovet dövlət rəhbəri N.S.Xruşşov Böyük Britaniya kraliçası 2-ci Elizavetaya hədiyyə olaraq iki at göndərmişdi – Axal-təkə atı və "Zaman" adlı Qarabağ atı.

Azərbaycanda 18-19-cu əsrlərdə Qazaxda yetişdirilmiş at cinsi Dilbaz və ya Qazax atı kimi tanınmışdır. Bu cinsin təkamülündə Qarabağ və ərəb atlarının iştirakı ilə cütləşmələrdən istifadə olunmuşdur. S. Vurğun "Əlim tərpənməmiş oyna yerindən" misrası ilə başlayan "A köhlən atım" şeirində, çox güman ki, mindiyi Qarabağ və ya Qazaxın Dilbaz atını vəsf edirdi.



*1956-cı ildə 2-ci Elizavetaya hədiyyə olunan "Zaman" adlı Qarabağ atı*

# At belində gəzən xalqlar. Türklər

Bütün xalqlar at minmişlər, gec ya tez. Amma, bəziləri "at minən xalqlar" kimi tanınmışlar. Atın əhliləşdirildiyi və ya əhliləşmiş atın geniş meydana çıxdığı yerlərin qədim sakinləri atı sevmiş və yaxşı at minən olmuşlar – bu fikir təbiidir. Atın əhliləşdirilməsində iştirak edən, at minən kimi tanınan qədim xalqlar arasında Sak, Massaget, Skif, Hun, Avar, Türk və Monqolların adları çəkilir. Qədim türklərin (və ya onların əcdadlarının) atı əhliləşdirənlər arasında olduqları, hətta "at minən ilk insanlar" olduqları deyilir; bu barədə birinci növbədə qeyri-türk alimlər, məsələn, O. Mengghin, W. Koppers, F.Flor, W. Schmidt yazmışlar. (*Bax: "Türk Kültüründe At ve Çağdaş Atçılık". Editor: Emine Gürsoy-Naskali, İstanbul, 1995, s. 25-26*).

Köçərilərin oturaq həyat seçənlərdən hərbi üstünlüyünü müəyyən edən mühüm səbəb köçərilərin at üstündə hərəkət etmələri idi. At çöl və köç mədəniyyətlərinin ən aparıcı qüvvələrindən biri kimi qiymətləndirilmiş, atın iqtisadi dəyəri çox yüksək olmuşdur. Köçəri həyat tərzi heyvandarlığın inkişafını tələb etmişdir. İlk çöl imperiyası yaratmış olan Asiya hunlarının (Hunnu və ya Syunnu`ların) həyatları ata bağlı idi. Qədim hun və türklər arasında atçılıq, qoyunçuluq, həmçinin irubuynuzlu malçılıq həyati vacib fəaliyyət növü olmuşdur; əlbəttə, qatır, eşşək və dəvəçilik də vardı. Qədim çinlilər hunlarla həm savaşır, həm də ticarət edirdilər. Çinlilər hunlardan at istəyir, əvəzində əsasən ipək parça verirdilər. Hədiyyə və ya bac-xərac olaraq hunlar at, çinlilər isə ipək göndərirdilər. Çinlilərlə hunlar və türklər arasında at-ipək alışı-satışında müxtəlif vaxtlarda bir at bir və beş arası top və ya on top (dəst, parça) ətrafında ipəyə dəyişdirilirdi (*Faruk Sümer. Türklerde Atçılık ve Binicilik. TDAV Yayınları, İstanbul, 1983; s.12*). Hun, türk və uyqur dövlətlərinin iqtisadi təməlində sanki at dayanırdı. Ata sahib olmaq, böyük at ilxıları əldə etmək üçün savaşa girirdilər. At sahibləri öz atlarının tanınması üçün, adətən, atlara xüsusi damğa vurardılar.

Türklərin əcdadı sayılan Asiya hunları və prototürklərin də daxil olduğu Avropa hunları cins at yetişdirməkdə, at minməkdə və at üstündə döyüşdə, o cümlədən ox atmaqda böyük məharət sahibi olmuşlar. Hun dövrü tarixçiləri hunların həyatının atla çox sıx bağlı olduğunu xüsusi vurğulamışlar: "hənuz ayaqda dura bilən hər hun uşağının yanında yəhərlənmiş bir at olurdu! Avropa hunları at üstündə yeyər, içər, alış-veriş edər, söhbət edər, yatardılar (*Osman Fikri Sertkaya. Eski Türk Kültüründə At. Bax: "Türk Kültüründe At ve Çağdaş Atçılık". İstanbul, 1995. s. 26*) (?Linder, 1963. s. 18).

"1246-cı ildə papanın elçisi olaraq Orta Asiya bölgəsini başdan-başa keçib Monqolustana gedən Plano Carpini atların çoxluğu qarşısında heyrətdə qalaraq belə yazmışdı: heyvanların çoxluğu baxımından onlar son dərəcə zəngin insanlardır; heyvanları başlıca dəvə, sığır, qoyun və keçidir; atlarına gəlincə, o qədər çox atları var ki, dünyanın geri qalan qismində o qədər çox sayda at olduğunu sanmayıram" (*Faruk Sümer. Türklerde Atçılık ve Binicilik. TDAV Yayınları, İstanbul, 1983; s. 2*).

* * *

Türklərin özü tərəfindən 8-ci əsrin 20-30-cu illərində yazıya alınmış Orxon-Yenisey daş kitabələri türk böyüklərinin qəhrəmanlığını, dövlət qurmalarını vəsf edir. Türklərin döyüş həyatında atın oynadığı rol bu yazılı abidələrdə aydın görünür. Türklərin böyük qəhrəmanı Kül Tiqin`in döyüş zamanı altındakı atların vurulması, hər atın öz adı ilə anılması və onun döyüşə davam etmək üçün tez-tez at dəyişdirməyi maraqlıdır. Kül Tiqin "21 yaşında ikən... Tadıqın Çorun boz atına minib hücum etdi. O at orda öldü". Və Kül Tiqin "İşbara Yantarın boz atına mindi..., o at da öldü", sonra "Yiqen Siliq bəyin giyimli doru atına minib hücum etdi. O at da orda öldü". Kül Tiqin zireh geyinibmiş, ona "yüzdən artıq ox vurdular, üzünə,

başına bir dənə də dəymədi". Yəni, mindiyi atlar vurulsa da, qəhrəman özü sağ qalır və yeni ata minirdi. Qırğızlarla savaşda "Kül Tiqin Bayırkun`un ağ ayğırına atılıb hücum etdi"; bu at da vuruldu. Türqişlərlə savaşdılar, bu dəfə "Kül Tiqin alnı ağ boz ata minib hücum etdi" (burada mətn yarımçıq qalıb, bu atın ölüb-ölmədiyi bilinmir). Bəzən hücumun zəifləməsi at və azuqə qıtlığı ilə bağlı olurdu; "Bizim əsgərin atı zəif, azuqəsi yox idi". Sonrakı savaşlarda Kül Tiqin Alp Şalçı ata mindi, üç dəfə savaşa girdi, bu at yalnız üçüncü savaşda vuruldu. O, daha sonra Azman ata və Az yağızına və öksüz ata mindi. Böyük sərkərdə Kül Tiqin öləndə var-dövləti arasında dörd minlik ilxısı da vardı (*Orhun Abideleri. Prof. Dr. Muharrem Ergin. Boğaziçi Yayınları İstanbul, 2007; s. 21-31*). Yazılı mətnin müəllifi Bilgə Kağan iqtisadi məsələlərin həllində atın rolunu vurğulayır: "Türk milləti ac idi. O at sürüsünü alıb bəslədim" (*s. 51*). Tonyukuk abidəsində məntəqələr arasındakı məsafə vahidi "bir at yolu" deyə müəyyən edilir (*s. 73*).

Böyük dilçi Mahmud Qaşqari öz məşhur "Divan-ü Lügati't-Türk" (1074) kitabında "At Türk'ün qanadıdır" deyir (*Kaşkarlı, I, 48-49. Faruk Sümer. 1983; s.1*). Hun və türklər məhz at üstündə qanad açıb böyük yürüşə çıxdılar və at belində sürətlə məlum dünyaya yayıldılar. "Quş hədəfinə (qayəsinə) qanadı ilə çatdığı kimi, insan da arzusuna atı sayəsində yetişir" (*Kaşkarlı, I, 34-35*). At onu sevən şəxsləri qəhrəmana, onu sevən güclü xalqları fatehə döndərdi. Mahmud Qaşqari`nin lüğəti atlar, atçılıq, atın fiziki və qaçış özəllikləri, at rəngləri, atçılıq terminləri, at məhsulları, at xəstəlikləri kimi sahələrə aid sözlərə baş vuran, atçılıq terminləri haqqında geniş söhbət açan bir ensiklopediya təsiri bağışlayır.

Mahmud Qaşqari`nin müasiri və yerlisi olan Yusub Balasaqunlu dövləti idarəetmə fəlsəfəsinə həsr etdiyi "Kutadqu Biliq" əsərində ata doğru münasibəti vurğulayır: "Mərd öyülsə əliylə arslan tutar, at öyülsə, yüyürər, uçan quşa yetişər" (*Arat, R. Rahmeti: Kutadgu Bilig- II, Çeviri, 4. Baskı, TTK yay.: Ankara 1988, XXVIII + 477; s. 2401-179*). Bu əsərdə əməyi sayəsində xoşbəxt olan şəxs "səadət atına minən insan" (*1608-124*) kimi təqdim edilir, eyni zamanda səadətin keçiciliyi, faniliyi yada salınır: "Səadət əslində köçər at (köç atı) kimidir, köçər gedər." (*1704-131*). Çox sayda cins atlara sahib olmaq zənginliyin mühüm əlamətidir: "Sən dünya malını topladın və zənginləşdin; hər cür ərəb atlarına, cins atlara və daylara malik oldun." (*5803-415*). Digər bir maraqlı fikir zamanın üzərinə minilmiş bir at kimi şərh olunmasıdır: "Anasından doğulub adı verilincə yolcu olaraq zəmanə atına minər." (*1388-109*).

Türklər və at mövzusuna aid aşağıdakı ədəbiyyata baxmaq olar.

*Eberhard, Wolfram. (1940). "Çin Kaynaklarına Göre Orta Asya'daki At Cinsleri ve Beygir Yetiştirme Hakkında Malumat". Ülkü. 92, 161- 177.*

*Caferoğlu, A., "Türk Onomastiğinde At Kültü", Türkiyat Mecmuası, C. 10, İstanbul 1953*

*Clauson, S.G., "Turkish and Mongolian Horses and Use of Horses, an Etymological Study", Central Asiatic Journal, 10/3-4, Wiesbaden 1965*

*Lindner, R.P., "Nomadism, Horses and Huns", Past and Present, No 92, London 1981*

*Sümer, F., Türklerde Atçılık ve Binicilik, İstanbul, 1995.*

*Creel, H.G., "The Role of the Horse in Chinese History", The American Historical Review, 70/3, Chicago 1965*

*Çinar, A. A. (1993), Türklerde At ve Atçılık, Ankara.*

*Çinar, A. A. (1995), "Divanu Lügati't-Türk'te At Kültürü", Türk Kültüründe At ve Çağdaş Atçılık, İstanbul.*

*Demirbilek, S. (2005), "Kutadgu Bilig'de At Kültürü", Millî Folklor, İstanbul, s. 134-138.*

*Sertkaya, O. F. (1995), "Eski Türk Kültüründe At", Türk Kültüründe At ve Çağdaş Atçılık, İstanbul, 1995, s.26.*

# Əl-Cahiz və Ömər Xəyyam türk atlılarını vəsf edirlər

Əl-Cahiz (776-868/9) 9-cu əsrdə yazıb-yaratmış, "Kitab əl-Hayavan" (Heyvanlar kitabı / Zoologiya) əsərində heyvanların yaşamaq uğrunda mübarizə aparması və bioloji təkamül ideyası ilə Darwin`i təqribən min il qabaqlamış məşhur ərəb yazıçısı və elm adamıdır. O, türkləri yaxından müşahidə etmiş, türklərin hərbi məharəti və süvari kimi fövqəladə qabiliyyətə malik olmaları barədə "Fəzail əl-Ətrak" (Türklərin fəzilətləri) adlı maraqlı əsər yazmışdır. Əl-Cahiz türkün həyatını at belində keçirməsini, türkün ata münasibətini təsvir və vəsf etmiş, atlı döyüşçü kimi türkün digər xalq və toplularla ("Xarici" adlanan və hərbi qanadı olan qrupla, xorasanlı və iranlılarla və s.) müqayisədə çox üstün olduğunu göstərmişdir (*al-Jahiz. The Merits of the Turks. See: Charles Pellat. The Life and Works of Jahiz. University of California Press, Berkeley, 1969*). Bu əsərdən aşağıda alıntılar edirəm (olduğu kimi və ya məzmuna xələl gətirməyən ixtisarla, ixtisara uyğun qrammatik düzəlişlərlə).

Türklər çox yaxşı nizəatan olmaqla yanaşı, onların, məsələn, min atlısı ağır vəziyyətə düşsə, hamısı birlikdə tək yaylımla bütün oxlarını atacaq və min düşmən atlısını yerə sərəcəklər. At üstündə oxatmada türklər qədər öz şücaətləri ilə məşhur başqa xalq yoxdur. Türk öz yəhərindən heyvanı, quşu, hədəfi, insanı, uzanmış heyvanı, nişan dirəyini və ya yuvasında əyilmiş yırtıcı quşu vuracaq. Türk, atı çapa-çapa nə qədər yorulsa da, öz atışmağına davam edir, başqaları bir ox atana qədər o, on ox atır. Türk atını dağın yamacına doğru və ya dərədən aşağıya başqaları düzən yerdə gedəndən daha sürətlə çapır.

Türkün biri öndə, digəri başının arxasında olmaqla iki cüt gözü var. Türk döyüşdə digərləri kimi elə-belə geriyə çəkilmir, o, həqiqətən də atının başını döndərirsə, bu, düşmən üçün öldürücü zəhər və dəqiq ölüm deməkdir, çünki o, oxunu qarşı tərəfə olduğu kimi arxa tərəfinə doğru da nişan alıb ata bilir. Türkün tam at çapma vəziyyətində kəməndindən istifadə etməklə düşmən atlını yəhərdən yerə salmaq hiyləsi xüsusilə qorxuncdur.

Türkün yortma və davamlı dördnala çaparaq uzun gecələr yol getməsi, ölkəni başdan ayağa kəsib keçmə qabiliyyəti var; bu, həqiqətən, qeyri-adidir. Türk atlı kimi peşəkar nalçıdan daha təcrübəlidir və öz atından nə əldə etmək istədiyini təlimçidən, məşqçidən daha yaxşı bilir. Türklərin gündəlik həyatı təfərrüatı ilə hesablansaydı, onun yerə nisbətən yəhərdə daha çox vaxt keçirdiyi məlum olardı. Türk gah ayğır, gah da cins madyana minir. O hara olur olsun - döyüşə, səfərə, ova və ya bir tapşırıq üzrə gedirsə, onun cins madyanı öz ayğırının arxasında gedir. Atına dincəlmək lazımdırsa, o, düşünmədən, ayaqları yerə dəyər-dəyməz, o biri atının üzərinə sıçrayır.

Türk atından o qədər çox şey tələb edir ki, onun şərtini yalnız ən dözümlü at ödəyə bilir; hətta onun əldən düşənə qədər sürdüyü və səfər üçün yararsız hala gətirdiyi atı belə gücünü saxlama baxımından digərlərinin atını üstələyir. Türk eyni zamanda çoban, atabaxan, təlimçi, at satıcısı, nalçı və atlıdır: bir sözlə, bir nəfərlik komandadır. Türk başqa atlılarla səfərə çıxanda onların 10 milinə qarşı iyirmi mil məsafə qət edir, onları tərk edərək sağa və sola dönür, yuxarıya doğru qalxır və dərələrin dibinə enir, qaçan, sürünən, uçan və ya dayanan hər şeyə hər zaman ox atır.

Uzun və çətin yolda hamı susur, yorğunluqdan sıxılır və əldən düşür. Dayanma yerinə çatanda bu atlıların hamısı yəhərdən düşür, xəstə adamlar kimi inildəyir və... uzanırlar. Amma türk, o, iki dəfə artıq məsafə qət etmiş olsa da, dayanacağın yaxınlığında ceyran və ya maral görsə, həmən çiyinlərini qaldırıb ox atır, yaxud tülkü və ya dovşan görsə həmən atın belinə sıçrayıb dördnala onların arxasınca çapır, sanki bu uzun və çətin yolu o deyil, başqası gəlib.

Atlar və atlılar ordunun canıdır. Şanlı günlər, məşhur döyüşlər, böyük fəthlər onlarındır. Onlarındır kişnərtilər, uçan toz, şıltaqlıq, paltarlar, küləkdə çırpınan silahlar və dırnaqların

gurultusu; onlar təqibdə səhvsiz, təqib olunduqda əlçatmazdırlar.

Ömər Xəyyam "Novruznamə" əsərində insan və atı bir-biriylə bağlı vəsf edir: "Dördayaqlıların heç biri attan daha yaxşı deyil. O, bütün otyeyənlərin şahıdır"... Xosrov Pərviz'ə minməsi üçün Şəbdiz atını gətirdilər. O dedi ki, "əgər Allahın insan oğlundan daha ali bir qulu olsaydı, dünyanı bizə verməzdi. Və əgər atdan daha ali bir dördayaqlı olsaydı, bizi ata mindirməzdi". Yenə o deyir ki "Padişah, insanların öndəri, at da dörd ayaqlıların öndəridir". (s. 3).

(*Erkan Göksu. Ömer Hayyam "Nevruzname"sine göre at ve at türleri. Gazi Türkiyat/Türklük Bilimi Araştırmaları Dergisi, 4 (Bahar 2009), s.21-34*).

Ömər Xəyyama görə "Səlçuklular zamanında dünyada heç bir millət atçılığı türklər qədər yaxşı bilməmişdir. Onların işləri-gücləri gecə-gündüz at ilədir və sonra cahan da onların əlindədir" (*Muharrem Kesik. At Üstünde Selçuklar. Timas Yayınları, İstanbul, 2011; s. ?*)

**Qeyd.** "Novruznamə"ni Ömər Xəyyamın yazması məsələsi şübhəlidir, yazsa da, ancaq bir hissəsini yazdığı deyilir. (*Aminrazavi, M. 2013. The Wine of Wisdom : The Life, Poetry and Philosophy of Omar Khayyam. Oneworld Publications*).

## Eşşək, qatır və dəvə də gözəl heyvanlardır...

Dəvə, eşşək və qatır kimi digər atkimiləri, müəyyən yerlərdə atı əvəz edənlər saymaq olar. Onlar dözümlü olsalar da, sürət məsələsində atdan geri qalırlar. Dəvə dağlıq və rütubət yerlərdə özünü yaxşı hiss etmir.

Eşşəyin 5 min il və ya daha əvvəl Afrikada vəhşi eşşəkdən əhliləşdirildiyi, Misir və Mesopotamiyada yayıldığı güman edilir. Su və qidanın azlığına dözümlü heyvandır. Eşşək 31 cüt xromosoma malikdir (at–32 cüt). Eşşəyin quyruğu nazik və qulaqları uzundur. "Eşşək" əvəzinə "uzunqulaq" demək sanki daha mədəni danışmaqdır... Eşşəyin inadcıl və səfeh olması fikri doğru deyil. Eşşək ağıllı heyvandır və çox ehtiyatlıdır, özünüqoruma hissinə malikdir, nədənsə qorxduğu bir yerə yaxınlaşmaqdan çəkinir, qorxduğu işə girişmək istəmir.

Qatır eşşək ata və at anadan törəmiş heyvandır. Çox dözümlüdür. Tərsinə cütləşmə, yəni ayğır və dişi eşşəyin balasına at qatırı deyilir; o, daha az rast gəlinən növdür, qatırla müqayisədə çox cəhətdən daha zəifdir. Qatır və at-qatır cinsləri nəsil vermir, doğub-törəməzdirlər.

Məhəmməd peyğəmbər Misir hökmdarı xristian Mukavkis`ə məktub göndərib onu islamı qəbul etməyə çağırmışdı. Mukavkis cavab olaraq peyğəmbərə xeyli hədiyyə göndərmişdi. Bu hədiyyələr arasında dörd cariyə qız, bir kişi qul, min misqal qızıl, müxtəlif Misir nemətləri, həmçinin at, boz qatır və eşşək olmuşdur. Çevik və sürətli bu qatırın adı Düldül, eşşəyin adı Yafur olub, atın adı bilinmir. Peyğəmbər Düldülə minmiş, sonra onu 4-cü xəlifə Əliyə hədiyyə etmiş, Əli döyüşlərdə onu minmişdir. Misir eşşəkləri qiymətli sayılmışlar; Yafur`un əfsanəvi (danışan və s.) olduğu barədə hədislər var. Məhəmməd peyğəmbər bu cariyə qızlardan biri – Mariyə əl-Qibtiyyə ilə evlənmiş, ondan olan oğlu İbrahim körpə ikən ölmüşdür.

İnsanın dili eşşəyə qarşı haqsız aşağılamalarla doludur. At-eşşək müqayisəsi açıq-aşkar atın xeyrinədir, eşşəyə istehza olunur: "Ata palan, eşşəyə yəhər yaraşmaz", "At meydanında eşşək anqırmaz", "Atı atası ilə tanıdarlar, qatırı anası ilə", "Qatırdan soruşdular: dədən kimdir? Dedi: nənəm atdır". Eşşəyə hörmət tək-tük hallarda görünür: "Eşşək qazanar, at yeyər". Atın kişnəməsi gözəllik, eşşəyin səs çıxarması, yəni anqırması tərbiyəsizlik əlaməti sayılır: "Eşşək kimi anqırma", "Eşşək anqıranda itin başı ağrıyar". Bir çox deyimlərə görə

eşşək qanmazdır və yaxşı heç nəyə layiq deyil: "Eşşək nə bilir ki, zəfəran nədir", "Eşşək olasan, çulun məxmər". Adamın çox savadsız olduğunu göstərmək üçün ona "İki eşşəyin arpasını bölə bilmir" deyirlər. "Eşşəyi minərlər, ata çatınca" deyimi isə "böyük məqsədə birdən çatmaq olmursa, ona addım-addım getmək olar" fikrini vurğulayır. "At olmayan yerdə eşşək də atdır" deyimi də bənzər fikrin ifadəsidir.

* * *

Eşşək barədə klassikləşmiş rəvayətlər mövcuddur, onlardan bir neçəsini yada salıram.

1. "Eşşəyi kirayə verirəm, kölgəsini deyil" məsəli mənasız mübahisə etməyə işarə vurur. Yunan sofist Zenobius (2-ci əsr) belə danışıb: "Deyirlər ki, məhkəmədə müdafiəçi-vəkil kimi çıxış edən Demosfen hakimlərin diqqətsizliyini, yaxşı qulaq asmadıqlarını görəndə – qulaq asın, sizə maraqlı əhvalat söyləyim, deyib və söyləyib: "Bir gənc bir eşşək kirayə edib Afinadan Meqaraya yola düşdü (eşşəyin sahibi ilə birlikdə). Günorta vaxtı o, eşşəyin kölgəsində oturub dincəldi. Eşşəyin sahibi etiraz etdi ki, yalnız eşşəyi icarəyə vermişəm, kölgəsini yox. Mübahisə davaya çevrildi". Burada Demosfen susdu və hakimlər ondan hekayəni tamamlamağı xahiş etdikdə, o, acı bir şəkildə dedi: "Siz eşşəyin kölgəsi haqqında nağılı dinləməyə hazırsınız, amma vacib bir məsələyə qulaq asmaq istəmirsiniz".

2. Buridan eşşəyi adlı çox populyar bir deyim var. Eyni dərəcədə ac və susuz eşşəyin qabağına ondan eyni məsafədə duran vedrədə su və bir qıcaq ot qoyulub. Eşşək su ilə ot arasında seçim edə bilmir, nəticədə o qədər tərəddüd edir ki, susuzluqdan və acından ölür. Əslində bənzər paradoks Buridan`dan çox-çox əvvəl yaşamış Aristotel`də və əl- Qəzali`də var. Aristotel "Göylər haqqında" (*On the Heaven, 259b*) əsərində yazır ki, eyni dərəcədə həm ac və həm də susuz olan adamın qarşısına yemək və su qoyulsa, o, hansından başlayım deyə tərəddüd içində qalıb ölə bilər. Əl-Qəzali`də isə belədir: Adamın qarşısında eyni dərəcədə yaxşı iki xurma varsa, o, onlardan birini – insan təbiətinə görə daha keyfiyyətlisini götürmək istəyəcək. Bunun üçün düşünməli olacaq (*Abu Hamid al-Ghazali, The Incoherence of the Philosophers. 2000. p. 23*). 14-cü əsr fransız filosofu Buridan`ın adı ilə bağlı olan rəvayətdə isə adam eşşəklə əvəz olunub. Bu paradoks fəlsəfənin "azad iradə" probleminə uyğundur və Buridan`ın əsərləri arasında onun adı ilə şöhrətlənən bu eşşək məsələsi yoxdur; o, sadəcə, azad iradə məsələsində *insan daha xeyirli olanı seçməyə çalışacaq* demişdir. Buridan misalına adamın əvəzinə eşşəyi kimin gətirdiyini bilmirəm.



*Buridan eşşəyinin təsviri*

3. Sən demə, Molla Nəsrəddinin məşhur, klassik lətifəsini SSRİ-nin rəhbəri Nikita Xruşşov yaxşı bilirmiş. Xruşşovun "20 ildən sonra SSRİ-də kommunizm qurulacaq, sovet adamlarının indiki nəsli kommunizmdə yaşayacaq" fikrinə qarşı çıxan bir dostunun "Nikita Serqeeviç, doğrudanmı siz elə düşünürsünüz?" sualına o, "yox, əlbəttə inanmıram, ancaq belə demək lazımdır" – deyə cavab verib. Təəccüb içində qalan dostunun "yaxşı, bəs 20 ildən sonra xalqa necə cavab verəcəksiniz?" sualına Xruşşov gözəl cavab verib: "Molla Nəsrəddin böyük pul müqabilində xanın eşşəyinə oxumaq öyrətməyi öhdəsinə götürmüşdü, arvadı deyəndə ki, a kişi, sənin ağlın yoxdumu, vədə bitəndə xana necə cavab verəcəksən? Mollanın cavabı

əvvəlcədən hazırmış (yoxsa bu işə girişməzdi ki...): Arvad, o zamana qədər ya xan ölər, ya eşşək, ya da mən".

* * *

Dəvənin əti, südü, dərisi, yunu qiymətləndirilir. Dəvə də atgillər kimi Şimali Amerikada meydana çıxmış və oradan dünyaya yayılmışdır. Müxtəlif cins dəvələrin hardasa 3-6 min il əvvəl Orta Asiya və Ərəb yarımadasının cənubunda əhliləşdirildiyi güman edilir. Dəvə quru çöl və səhralarda dözümlü yük və minik heyvanıdır; atdan xeyli ağır yük daşıya bilir. "Səhra gəmisi" sayılan dəvə dağ və rütubətli yerə dözmür. Uzun müddət susuz və qidasız yol gedə bilir (çəkisini xeyli itirməklə, "içindən yeməklə"), bu baxımdan əvəzi yoxdur. Yaxşı görmə və qoxu qabiliyyəti var. 40 il və daha çox yaşaya bilir. İki dəvə cinsi mövcuddur: belində bir donqarı olan və iki donqarı olan. Birdonqarlıya Birhürgüclü (Təkhürgüclü) və ya Dromedar, İkidonqarlıya isə İkihürgüclü (Cüthürgüclü) və ya Baktrian dəvə deyilir. Dünyadakı dəvələrin çox böyük hissəsini (94 - 95 % ) Birhürgüclü dəvələr təşkil edir. Bu iki cins dəvələri peyvənd edib, sonra onları yenidən bu və ya başqa cinslə peyvənd etmək yolu ilə yeni növ dəvələr əldə edirlər.



*Təkhürgüclü dəvə*



*Cüthürgüclü dəvə*

## Ədəbiyyat və mifologiyada at. Qərb aləmi

İnsanın atla bağlı xüsusi düşüncə və hissləri atın mifologiya, ədəbiyyat və incəsənətdə geniş əks olunmasını təmin etmişdir. Dünya ədəbiyyatı və mifologiyasında at insanla yanaşı layiqli yer tutmuşdur. İnsanlar atları da özləri kimi cürbəcür görmüşlər – sakit və çılğın, arıq və kök, qaçağan və astagedən, güclü və zəif... Dünya xalqları folklorunda həm möcüzəli, qanadlı və (və ya) danışan atlardan, həm də gerçək, amma çox sürətli, çox güclü və gözəl atlardan söhbət açılır. Atın Günəşdən çıxdığı və qaynar olduğu, küləkdən əmələ gəldiyi və böyük sürətə malik olduğu, qanadlanması, sudan-dənizdən çıxması, gözəllik və gücü ilə fərqlənməsi kimi cürbəcür fikirlər mövcud olub. Yaxşı atla insanın ruhən yaxınlığı vurğulanır; yaxşı at sahibini yaxınlaşan təhlükə barədə xəbərdar edir. Atı vəsf edən at poetikasından

danışmaq mümkündür. Külli miqdarda əsərlərdə atla bağlı süjetlərə rast gəlinir, atın baş qəhrəman və ya qəhrəmanlardan biri olduğu əsərlər də az deyil. Atla bağlı bir neçə mifoloji rəvayətləri və klassik əsərləri yada salmaqla kifayətlənirəm.



*Troya atı abidəsi. Çanakkale, Türkiyə*

"Troya atı" savaşda və ümumiyyətlə həyatda düşməni və ya rəqibi hiylə işlədib aldatmaq, maddi qazanc hissi aşılamaqla onun sayıqlığını zəiflədib yox etmək üsulu kimi tarixə düşmüşdür. Uzun mühasirəyə baxmayaraq Troya şəhərini fəth edə bilməyən yunanlar hiyləgər Odisseyin təklifi ilə taxtadan çox böyük bir at düzəltmiş, onun içində Odissey özü də daxil olmaqla cəsur döyüşçüləri gizlətmiş, sonra taxta atı sahildə qoyaraq, əlacsız qalıb oranı tərk etdiklərini göstərmək üçün gəmilərə minib uzaqlaşmışlar. Troyalılar sevinmiş və taxta atı hərbi qənimət kimi şəhərə aparmışlar. Gecə vaxtı yunan döyüşçülər bu taxta atdan çıxıb şəhər-qala qapılarını açmış və nəticədə yunan ordusu şəhəri dağıdıb, qələbə çalmışdır.

Makedoniyalı İsgəndər`in Bukefalos adlı atı da tarixi məşhurlar sırasındadır. Plutarx İsgəndər`in həyat tarixçəsində bu at barədə maraqlı rəvayət danışır. Makedoniya kralı Filipp`ə satmaq üçün təqdim olunan Bukefalos qəşəng, amma ipə-sapa yatmayan vəhşisayaq at idi və heç kimi yaxın qoymurdu (Bukefalos "öküzbaş" deməkdir). 12-13 yaşlı İsgəndər bu şıltaq atı ram etməyə girişdi. O, başqalarının görmədiyi bir şeyi - atın öz kölgəsindən ürkdüyünü müşahidə etmişdi və yüyənindən tutub atın başını günəşə doğru yönəltdi ki, o, öz kölgəsini görməsin. Atı əli ilə sığallaya-sığallaya bir qədər onun yanı ilə qaçan İsgəndər nəhayət atın belinə sıçradı və atın başını döndərib onu qürurla atası Filipp`in qarşısına sürdü. Oğlunun igidliyindən iftixar hissi duyan Filipp dedi: "Oğlum, sən özünə bərabər və layiq bir səltənət tap, çünki Makedoniya sənin üçün çox kiçikdir." (*Плутарх, «Александр», 6, Сравнительные жизнеописания в двух томах*).



*İsgəndər və Bukefalos.*
*Müəllif: Domenico Maria Canuti.*
*17-ci əsr*

* * *



*Don Quixote və Sancho Panza.*
*Müəllif: Lorenzo Coullaut-Valera. Madrid*

Miguel de Cervantes`in (1547-1616) dünya ədəbiyyatının şah əsərlərindən olan "Don Quixote" (Don Kixot, 1605) romanı onun baş qəhrəmanı, qəribə cəngavər Don Kixot`un başına gələn macəralardan bəhs edir. Don Kixot həmişə özünə yaxın sadə adam – eşşək belində gəzən Sancho Panza və özünə oxşar görünüş və xasiyyətə malik yöndəmsiz, yaşlı və yorğun at – Rocinante (Rosinant) ilə birlikdədir.

İngilis yazıçısı Jonathan Swift`in (1667-1745) qələmindən çıxan və dünya ədəbiyyatının satirik incilərindən sayılan məşhur "Gulliver`in səyahətləri" (*Gulliver`s Travels, 1726*) əsərinin sonuncu – dördüncü hissəsi Gulliver`in ixtiyarsız düşdüyü bir adada rastlaşdığı iki növ məxluqları təsvir edir: vəhşi, ağılsız adamlar – Yahoo`lar və danışan, zəkalı, mehriban atlar - Houyhnhnm`lar. Houyhnhnm`lar Gulliver`in zəkalı olduğunu görsələr də, onu Yahoo sanır və Gulliverin bütün səylərinə baxmayaraq onu adadan getməyə məcbur edirlər.



*Gulliver Houyhnhnmlar diyarında*

Lord Byron`un (1788-1824) "Mazeppa" (1819) poeması ədəbiyyat və incəsənətdə böyük iz buraxmışdır. Əsərin qısa məzmunu belədir. Ukraynalı Hetman Mazeppa və İsveç kralı 12-ci Karl Rusiya ilə Poltava savaşında məğlub olub, geri çəkilirlər. Yorğun düşmüş bu iki kişi gecələmək üçün düşərgə salırlar. Kral Mazeppanın at sürməsinə heyranlığını bildirir və Mazeppa ona bu bacarığı necə öyrəndiyini söyləyir. Mazeppa gəncliyində başına gələnlərdən, o cümlədən Polşada Kral 2-ci Iohann Kazimirə bir paj kimi yaxın xidmətindən danışır. O, "Asiya baxışlı" gözəl şərqsayağı qadın Tereza ilə tanış olur. Tereza özündən otuz yaş böyük qrafla evlidir. Mazeppa ona o dərəcədə aşiq olur ki, ehtiraslarına hakim ola bilmir və onlar gecə görüşüb sevişirlər. Lakin Qrafın adamları onları bir yerdə tutub, Qrafin yanına gətirirlər. Qraf qeyri-adi dərəcədə qəddar bir cəza əmri verir: Mazeppa`nı çılpaq şəkildə bir ata bağlayırlar, onu ələ salır və sərbəst buraxırlar. At Şərqi Avropa boyu çapır, Mazeppa böyük ağrı hiss edir, əzab çəkir, həyəcan keçirir. Atın sanki zahirən sonsuz enerjisi var. Mazeppa iki dəfə az qala ölür. O, özünü "ölümlə üzbəüz" kimi təsvir edir, lakin at çayda üzəndə özünə gəlir, sonra "buz xəstəliyi" hiss edir və onun

cəsədi ilə kef çəkməyə hazırlaşan qarğanı görür. Huşunu itirən Mazeppa oyananda özünü yataqda görür, yaralarını "kazak qız" müalicə edir. Qəhrəman at ölmüş, qəhrəman Mazeppa xilas edilmişdir. Mazeppa söhbəti bitirir və yatmaq üçün yatağını hazırlayır, Kral artıq bir saat vardı ki, yatmışdı.



*Mazeppa ölməkdə olan atın üstündə. 1824.*
*Müəllif: Delacroix*



*Mazeppa və Canavarlar. 1826.*
*Müəllif: Horace Vernet. Calvet Muzeyi, Fransa*



*Mazeppa atların əhatəsində. 1833.*
*Müəllif: John Frederick Herring I. Tate Gallery*

Ukraynalı Hetman Mazeppa`nın (1639-1709) belə macəralı sevgisi və çılpaq şəkildə ata bağlanması barədə rəvayəti təsdiq edən heç bir tarixi sənəd yoxdur. Byron`un Mazeppa`sı, xüsusilə çılpaq adamın at belində uzun və təhlükəli səfər həyəcanı şair, yazıçı və jurnalistlərə,

bəstəkar, rəssam və digər sənətkarlara, siyasət və iş adamlarına ilham vermişdir. Victor Hugo 1829-cu ildə "Mazeppa" adlı kiçik bir poema yazmış, bu poema əsasında Franz Liszt 1850-ci ildə orkestr üçün "Mazeppa" simfonik poemasını bəstələmişdir (ilk tamaşa 1854-cü ildə baş tutmuşdur). P.İ. Çaykovsky "Mazeppa"adlı 3 pərdəli opera yazmışdır (1881-1883, ilk tamaşa – 1884); o, Byrona deyil, fərqli süjetə – Puşkinin "Poltava" poemasına əsaslanmışdır. Böyük romantik rəssam Delacroix 1824-cü ildə "Mazeppa ölməkdə olan atın üstündə" rəsmini çəkmişdir. Horace Vernet (1789-1863) və onun arxasınca John Frederick Herring (1795-1865) Mazeppa mövzusunda bir neçə rəsm çəkmişlər (1826, 1833, 1842).



*Lev Tolstoy*

İngilis yazıçısı Anna Sewell`in (1820-1878) tək əsəri olan "Black Beauty" (Qara inci / Qara qəşəng, 1877) ən çox satılan, ən çox oxunan kitablardan biridir. İndi uşaq ədəbiyyatına aid edilən bu əsər Qara inci adlı atın öz dili ilə danışdığı həyat tarixçəsindən bəhs edir. O, dayça olaraq anasının yanında bir fermada keçirdiyi qayğısız günlər, Londonda kebdə (faytonda) çalışdığı ağır günlər, başına gələn maraqlı əhvalatlar və xoşbəxt təqaüd çağı barədə danışır.

Lev Tolstoy (1828-1910) uşaqlıqdan at sürmüş, həyatının mühüm hissəsini at belində keçirmişdi. O, atı çox sevir və at barədə düşünürdü, onu sanki bir at ehtirası bürümüşdü. Tolstoy`un 4 minə yaxın atdan ibarət böyük ilxısı, qardaşının isə at zavodu vardı. Tolstoy hətta yerli atla ingilis atını peyvənd etmək vasitəsilə yeni bir at cinsi yetişdirmək arzusunda olmuşdur. "Hərb və Sülh" romanı atla bağlı süjetlərlə doludur. "Anna Karenina" romanında Aleksey Vronski`nin "Fru-fru" adlı qaçağan (cıdır) atının faciəsi ilə baş qadın obrazın – Anna Karenina`nın faciəsi arasında bir paralellik görmək mümkündür. Əslində Tolstoyun "Fru-fru" adında öz sevimli atı vardı; "Dəmir" və "Sultan" da onun xoşuna gələn atlar arasında idi. Tolstoyun "Xolstomer" adlı hekayəsi (1863-1886) axtalanmış atın faciəsinə həsr olunmuşdur. Bu əsər əsasında teatr tamaşası qoyulmuş, kinofilm çəkilmişdir.

Amerika yazıçısı Mark Twain "A Horse's Tale" (At rəvayəti, 1906) povesti bir yetim qız və onun sevimli atının faciəsindən danışır. Qız və onun atı – hər ikisi işkəncəyə məruz qalmış öküzün buynuzunda qanlı ölümə düçar olur.

(*Ardı gələn nömrədə*)

# "KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES" JURNALININ YENİ NÖMRƏSİ YAYIMLANIB




"Khazar Journal of Humanities and Social Sciences" ("Xəzər Humanitar və Sosial Elmlər Jurnalı") jurnalının yeni nömrəsi (Cild 26, N°2, 2023) yayımlanmışdır. Yeni nömrəyə daxil olan məqalələr siyasi elmlər, tarix, təhsil, dil və ədəbiyyat, sahələrinə aiddir. Məqalələrin tam versiyaları ilə burada tanış ola bilərsiniz: https://ejournal.khazar.org/

Sizi "Khazar Journal of Humanities and Social Sciences" jurnalını oxumağa, öz elmi nəşrlərinizdə onun məqalələrindən sitatlar verməyə və çap etdirmək üçün keyfiyyətli və orijinal məqalələrinizi bizə göndərməyə dəvət edirik (hazırda üstünlük verilən sahələr: təhsil, linqvistika, ədəbiyyat, beynəlxalq münasibətlər və siyasi elmlər). Daha ətraflı məlumat üçün: https://ejournal.khazar.org/index.php/kjhss/about/submissions

# NEW ISSUE OF "KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES " PUBLISHED

The new issue of" Khazar Journal of Humanities and Social Sciences "(Volume 26, N°2, 2023) has been published. The articles included in the new issue relate to the fields of political science, history, education, language and literature. Full versions of the articles can be found here: https://ejournal.khazar.org/

We encourage you to read KJHSS, cite from its publications, and submit your quality and original research papers for possible publication (the priority fields for now are Education,Linguistics, Literature, IR &Political Science).

For further information please, see: https://jhss-khazar.org/author-guidelines/

# XƏZƏR UNİVERSİTETİNDƏ 3-CÜ BEYNƏLXALQ VAHİD SAĞLAMLIQ KONFRANSI KEÇİRİLDİ

# THE 3RD INTERNATIONAL CONFERENCE ON ONE HEALTH HELD AT KHAZAR UNIVERSITY






*İradə Xəlilova*

İyunun 1-2-də Xəzər Universitetində 3-cü beynəlxalq "Vahid Sağlamlıq: Problemlər və Həllər" konfransı keçirildi.

Konfrans Planetary Health Alliance (PHA) konsorsiumunun üzvü olaraq Xəzər Universitetinin təşkilatçılığı, habelə Azərbaycan Tibb Universiteti, Vəli Axundov adına Azərbaycan Milli Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, İsveç Kənd Təsərrüfatı Elmləri Universitetinin (SLU) Molekulyar elmlər departamentinin Heyvan Rifahı Mərkəzi, Ukrayna Milli Həyat və Ətraf Mühit Elmləri Universitetinin Heyvandarlıq və su bioresursları fakültəsi və Ukraynanın Poltava Dövlət Aqrar Universitetinin həmtəşkilatçılığı ilə təşkil edilmişdir.

Konfrans planetimizdə müharibələr, təbii fəlakətlər və aclıq qurbanı olmuş uşaqların xatirəsinin bir də-

On June 1-2, the 3rd International Conference on "One Health: Problems and Solutions" was held at Khazar University.

The conference was organized by Khazar University as a member of the Planetary Health Alliance (PHA) consortium, as well as co-organized by Azerbaijan Medical University, Azerbaijan National Research Institute of Medical Prevention named after Vali Akhundov, the Food Safety Agency of The Republic of Azerbaijan, the Department of Molecular Sciences at the Swedish University of Agricultural Sciences (SLU) together with SLU Swedish Centre for Animal Welfare of SLU who works together with Khazar University in a joint project (HanimSPAC) on animal welfare and sustainability, the faculty of Livestock Raising and Water Bioresources from the National University of Life and Environmental Sciences of



*David Dyjack*




*Rövşən Abbasov*




*Qalia Zamaratskaia*

qiqəlik sükutla yad edilməsi ilə başlamışdır. Sonra universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, akademik Hamlet İsaxanlı və universitetin rektoru, konfransın sədri dosent İradə Xəlilova salamlama nitqi ilə konfransın açılışını etdilər. Daha sonra Planetary Health Alliance (PHA) konsorsiumunun konfrans üçün göndərdiyi salamlama videosu konfrans iştirakçılarına təqdim edildi.

Konfransın İqlim dəyişilmələri, Sağlamlıq və Qida təhlükəsizliyi sessiyası konfransın sədri dosent İradə Xəlilovanın və Dr. David Dyjack`ın moderatorluğu




*Xinchun Chen,*

ilə aparıldı. Sessiyada Planetary Health Alliance (PHA) konsorsiumundan Dr. David Dyjack, Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov, İsveç Kənd Təsərrüfatı Elmləri Universitetinin dosenti Qalia Zamaratskaia əsas məruzəçilər qismind, habelə Ukrayna, Tacikistan, Türkiyə, Çin və Azərbaycandan olan digər məruzəçilər çıxış etdilər. Sessiyanın sonunda Şenzen Universitetinin və Springer Nature əməkdaşları tərəfindən iki təlim təqdimatı edildi.

*(Ardı səh.68 -də)*



*Xingzhi (Xavier) Xu*

Ukraine, and Poltava State Agrarian University of Ukraine.

The conference began with a minute of silence in memory of children who became victims of wars, natural disasters and hunger on our planet.

Then the founder of the university, the chairman of the Board of Directors and Trustees, professor, academician Hamlet Isakhanli and associate professor Irada Khalilova, chair of the conference opened the conference with a welcome speech. Afterwards, the participants were presented with a welcome video sent by the PHA for the conference.




*Ali Azghani*

The Climate changes, Health and Food safety session of the conference was moderated by the chair of the conference, associate professor Irada Khalilova and Dr. David Dyjack. The key speakers Dr. David Dyjack, Chief Executive Officer National Environmental Health Association of the USA, Dr. Rovshan Abbasov, head of the Department of Geography and Environment at Khazar university, associate professor Galia Zamaratskaia from Swedish University of Agricultural Sciences (SLU), as well as

*(To be continued page 68)*



*Ali Azghani, Xinchun Chen, Xingzhi (Xavier) Xu, Nazarbayev University employees: Abduzhappar Gaipov, Gulnur Zhakhina*

Konfransın ikinci günündə Texas at Taylor Universitetinin professoru Ali Azghani`nin və konfransın sədri İradə Xəlilovanın moderatorluğu ilə İctimai səhiyyə, xəstəliklərin kontrolu və qarşısının alınması strategiyaları sessiyası baş tutdu. Sessiyada əsas məruzəçi kimi Çinin Shanghai Universitetinin Pan-SHU Sci-Tech Parkının baş direktor müavini professor Lu Xiaolin, Shenzhen Universitetinin Tibb fakültəsinin dekanı professor Xingzhi (Xavier) Xu və müavini professor Xinchun Chen, Fudan Universitetinə bağlı Minhang Hospitalının İntensiv terapiya departamentinin direktor müavini professor Jiang Lijing və Texas at Taylor Universitetinin professoru Ali Azghani əsas məruzəçi qismində çıxış etdilər. Daha sonra Türkiyə, Qazaxıstan, Amerika Birləşmiş Ştatları və Azərbaycandan olan tədqiqatçıların məruzələri dinlənildi.

Konfransda yuxarıda adları sadalanan ölkələrdən 80-dən çox tədqiqatçı dinləyici kimi iştirak etdi. İki günlük konfransda ümumilikdə 34 təqdimat baş tut-

other speakers from Ukraine, Tajikistan, Türkiye, China and Azerbaijan delivered speeches at the session. At the end of the session, two workshop presentations were given by the staff of Shenzhen University and Springer Nature.

On the second day of the conference, Public Health, Disease Control and Prevention Strategies session was held under the moderatorship of Texas at Tyler University professor Ali Azghani and conference chair Irada Khalilova. Professor Lu Xiaolin, Deputy Director General of the Pan-SHU Sci-Tech Park of Shanghai University of China, professor Xingzhi (Xavier) Xu, Executive Dean of Medical School of Shenzhen University, China and his deputy, professor Xinchun Chen from China, professor Jiang Lijing, deputy director of the Department of Intensive Care at Minhang hospital affiliated to Fudan University of China, and professor Ali Azghani from Texas at Taylor University from the USA deliverd speeches as keynote speakers. Then the speeches of researchers







du, 50-yə qədər məruzə xülasəsi təqdim olundu.

Memarlıq və dizayn departamentinin tələbələri konfransda fəal iştirak edərək, təbiətin mühafizəsini təbliğ etmək məqsədilə İqlim Dəyişikliyi və Ekosistem Sağlamlığı mövzusunda öz posterlərini təqdim etdilər.

Konfransın sonunda Çinin Shenzhen Universitetinin Tibb fakültəsinin dekanı professor Xingzhi (Xavier) Xu öz universiteti haqqında təqdimat edərək, Shenzhen Universitetinin Tibb fakültəsinə tam təqaüdlə biologiya ixtisası üzrə doktoranturaya seçilərək qəbul olmuş Xəzər Universitetinin 4 bakalavr tələbəsini elan etdi və təqaüdlərin mükafatlandırma mərasimi baş tutdu. Sonda Çinin Shenzhen Universitetinin Tibb fakültəsi ilə Xəzər Universiteti arasında əməkdaşlığın müxtəlif istiqamətləri üzrə  Anlaşma Müqaviləsi imzalandı.

Konfransın keçirilməsinə Azərbaycanda laboratoriyaların qurulması və treyninq xidmətlərinin verilməsində qabaqcıllardan olan Bayramlı Group LLC tərəfindən sponsorluq edilmişdir.



from Türkiye, Kazakhstan, the United States of America and Azerbaijan were heard.

More than 80 researchers from the countries listed above participated in the conference as listeners. A total of 34 presentations took place during the two-day conference, and up to 50 report summaries were presented.

Students from the Architecture and Design department actively participated at the conference and presented their posters on Climate Change and Ecosystem Health to promote nature protection.

At the end of the conference, Professor Xingzhi (Xavier) Xu, dean of the School of Medicine of Shenzhen University of China, gave a presentation about their university and announced 4 undergraduate students of Khazar University who were selected and admitted to the doctoral program in biology with a full scholarship to the School of Medicine of Shenzhen University, and an award ceremony took place. At the end, the Memorandum of Understanding was signed between the School of Medicine of Shenzhen University of China and Khazar University on various fields of cooperation.

The conference was sponsored by Bayramli Group LLC, one of the pioneers in establishing laboratories and providing training services in Azerbaijan.



# PICASP LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ "TURLARIN TƏŞKİL OLUNMASI" MÖVZUSUNDA SEMİNAR

# SEMINAR ON "ORGANIZATION OF TOURS" WITHIN THE FRAMEWORK OF PICASP PROJECT

Xəzər Universitetində PİCASP layihəsi çərçivəsində İqtisadiyyat və menecment fakültəsi və İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə MİRAS Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi tərəfindən mayın 23-də İqtisadiyyat və menecment fakültəsi bakalavr pilləsi üzrə təhsil alan turizm ixtisası tələbələrinin və müəllim heyətinin iştirakı ilə "Turların təşkil edilməsi" mövzusunda seminar keçirilmişdir.



Aidə Məlikova



Layihənin əməkdaşı, MİRAS İctimai Birliyinin idarə heyətinin üzvü Məleykə Hüseynova çıxış edərək layihənin məqsədləri, qarşıda duran hədəflər, layihə çərçivəsində həyata keçirilməsi planlaşdırılan tədbirlər, əldə olunacaq nəticələr və s. barədə məlumat vermişdir. Ginza Travel şirkətinin icraçı direktoru Aidə Məlikova turizmin anlayışı, turizm sahəsində fəaliyyət göstərən qurumlar, onların klassifikasiyası, turizm fəaliyyəti zaman həyata keçirilən funksiyalar, turların təşkili ilə bağlı əsas məsələlər, bu sahədə mövcud problemlər, onların həlli yolları, turizm fəaliyyətinin tənzimlənməsi sahəsində beynəlxalq və milli qanunvericilik və s. əhatə edən təqdimatla çıxış etmişdir.

MIRAS-PICASP seminarlarının məqsədi Xəzər bölgəsində mədəni irs, arxeologiya, muzeylər, turizm sahəsində universitet-müəssisə əməkdaşlığına zəmin hazırlamaqdır. Layihənin əsas məqsədi yeni öyrənmə vasitəsi olan açıq ödənişsiz onlayn kursların (MOOCs) tətbiqi ilə nəzəriyyə və təcrübəni

On May 23, a seminar entitled "Organization of tours" was held by MIRAS Public Union for the Study of Cultural Heritage under the joint organization of the School of Economics and Management and the Development Office with the participation of undergraduate students majoring in Tourism and faculty of the School of Economics and Management.

Maleyka Huseynova, an employee of the project, a member of the management board of MIRAS Public Union, delivered a speech and informed about the objectives of the project, the upcoming goals, the measures planned to be implemented within the project, and the results to be achieved. Aida Malikova, executive director of Ginza Travel, made a presentation on the concept of tourism, organizations operating in the field of Tourism, their classification, functions performed during tourism activities, main issues related to the organization of tours, existing problems in this field, ways to solve them, international and national legislation in the field of regulation of tourism activities and other issues.

The aim of the MIRAS-PICASP seminars is to prepare the ground for university-institution cooperation in the field of cultural heritage, archeology, museums, and tourism in the Caspian region. The main goal of the project is to increase the competence of teachers in the field of small and medium-sized bu-






*Məleykə Hüseynova*

birləşdirən pilot kurslar əsasında kiçik və orta biznes sahəsində müəllimlərin kompetensiyalarının artırılması, yeni metodologiya və tədris vasitələrinin təqdim olunması, mədəni irsin qorunması sahəsində kadr hazırlığı səviyyəsinin yüksəldilməsi, xüsusilə ali təhsil sahəsində potensialın gücləndirilməsindən ibarətdir.

sinesses on the basis of pilot courses that combine theory and practice with the introduction of open Free Online Courses (MOOCs), which are a new learning tool, introduce new methodologies and teaching aids, increase the level of staff training in the field.

## ECAR LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ 6-CI İDARƏETMƏ GÖRÜŞÜ

## 6TH MANAGEMENT MEETING WITHIN ECAR PROJECT

Mayın 25-də Bakı Biznes Universitetində "Azərbaycanda Rektorlar Konfransının yaradılması" adlı Erasmus+ layihəsi çərçivəsində xarici tərəfdaşların iştirakı ilə 6-cı idarəetmə görüşü keçirilib.

Xəzər Universitetinin tərəfdaş olduğu layihənin idarəetmə görüşündə konsorsiumun üzvü olan 15 Azərbaycan universitetinin məsul şəxsləri və Avropa tərəfdaşları iştirak edib.

Layihə koordinatoru Gülşən Bayramovanın mövcud layihə fəaliyyətləri ilə bağlı qısa təqdimatından sonra elmi işlər, tələbə və məzunlarla iş üzrə komitə sədrlərinin hesabatı dinlənilib, eyni zamanda layihənin keyfiyyət təminatı və monitorinqi ilə bağlı xarici ekspert George Dafoulasın sualları iştirakçılar tərəfindən cavablandırılıb.

Tədbirdə Xəzər Universitetini İnkişaf Mərkəzinin layihə meneceri Səbinə Quluyeva təmsil edib.

On May 25, Baku Business University held the 6th management meeting with the participation of foreign partners within the framework of the Erasmus+ project called "Establishment of the Rectors' Conference in Azerbaijan".

Officials of 15 Azerbaijani universities and European partners who are members of the consortium participated in the management meeting of the project in which Khazar University is a partner.

Following the brief presentation of the project coordinator Gulshan Bayramova on the current project activities, the report of the chairmen of the committee on scientific affairs, work with students and graduates was heard. At the same time, the questions of the foreign expert George Dafoulas regarding the quality assurance and monitoring of the project were answered by the participants.

Sabina Guluyeva, project manager of the Development Center, represented Khazar University at the event.

# XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI İTALİYANIN TUSCİA UNİVERSİTETİNDƏ BEYNƏLXALQ İŞÇİ HƏFTƏSİNDƏ

# KHAZAR UNIVERSITY STAFF MEMBERS AT INTERNATIONAL STAFF WEEK AT TUSCIA UNIVERSITY IN ITALY

Mayın 22-26-da Neft mühəndisliyi departamentinin müdiri Dr. Elşən Abdullayev, rektorun assistenti və Kompüter mühəndisliyi departamentinin müəllimi Humay Hüseynova və Beynəlxalq əlaqələr ofisinin koordinatoru Fatimə Vəliyeva Erasmus+ İşçi heyəti-nin mübadiləsi proqramı (KA107) çərçivəsində İtaliyanın Tuscia şəhərində yerləşən Tuscia Universitetində (Università degli Studi della Tuscia) keçirilmiş Beynəlxalq İşçi Həftəsində iştirak etmişlər.

Proqramın ilk günü universitetin rektoru Prof. Stefano Ubertin və Beynəlxalq əlaqələr üzrə prorektor Prof. Simone Severini iştirakçılar ilə görüşdülər və Beynəlxalq İşçi Həftəsinin məqsədləri, həmçinin universitet haqqında təqdimat nümayiş olundu.

Tədbirdə müxtəlif ölkələrdən nümayəndələr iştirak edirdilər. Beynəlxalq əlaqələr ofisinin koordinatoru Fatimə Vəliyeva Xəzər Universiteti və universitetin fakültələri, tələbələrə təklif etdiyi təqaüdlər, beynəlxalq imkanlar, əməkdaşlıqlar haqqında təqdimatla çıxış etdi.

Proqramın növbəti günlərində Prof. Giuseppe Calabro innovativ və inklüziv tədris haqqında təqdimat nümayiş etdirdi. Prof. Sonia Melchiorre administrativ

On May 22-26, head of the Department of Petroleum Engineering Dr. Elshan Abdullayev, assistant to the rector and lecturer of the Computer Engineering Department Humay Huseynova and coordinator of the International Relations Office Fatima Valiyeva participated in the International Working Week held at the University of Tuscia in Tuscia, Italy within the framework of the Erasmus+ staff exchange program (KA107).

On the first day of the program, the rector of the university, Prof. Stefano Ubertin, and the vice-rector for International Relations, Prof. Simone Severini, met with the participants and made presentation on the objectives of the International Staff Week, as well as about the university.

Representatives from different countries took part in the event. Fatima Valiyeva, coordinator of the International Relations Office, made a presentation about Khazar University and its faculties, scholarships offered to students, international opportunities, cooperation.

In the following days of the program, Prof. Giuseppe Calabro delivered a presentation on innovative and inclusive teaching. Prof. Sonia Melchiorre repor-



*Fatimə Vəliyeva, Humay Hüseynova, Elşən Abdullayev, Seymur Mirzəliyev*

kommunikasiyada müxtəliflik və inklüzivlik haqqında məlumat verdi. Layihə koordinatoru Dr.İsabella Querci tərəfindən innovativ təcrübə - tədqiqat istiqamətində vörkşop keçirildi.

Həftədə iştirak edən universitet nümayəndələrinin Tuscia Universitetində Erasmus+ Tələbə Mübadilə Proqramı ilə hal-hazırda təhsil alan tələbələrlə görüşü təşkil olundu. Xəzər Universitetinin əməkdaşları universitetin Təbiət elmləri və mühəndislik fakültəsinin Neft-qaz mühəndisliyi ixtisasının 3-cü kurs tələbəsi Seymur Mirzəliyevlə görüşərək, təəssüratları ilə maraqlandılar.

Proqram iştirakçılarının Bolsena gölünə səfəri təşkil edildi, universitetin kampusunda axşam ziyafətinə dəvət olundular.

Proqramın sonunda iştirakçılara sertifikat təqdim edildi.

ted on diversity and inclusion in administrative communication. Project coordinator Dr. Isabella Querci held a workshop in the direction of innovative practice - research.

A meeting of university representatives participating in the week with students currently studying at the University of Tuscia with the Erasmus+ Student Exchange Program was organized. Employees of Khazar University met Seymur Mirzaliyev, a 3rd-year student of Oil and Gas Engineering at the School of Science and Engineering, and were interested in his impressions.

A visit of the program participants to Lake Bolsena was organized, they were invited to an evening banquet on the campus of the University.

At the end of the program, participants were presented with certificates.

## NEFT MÜHƏNDİSLİYİ DEPARTAMENTİNİN MÜƏLLİMİ İTALİYANIN TORİNO POLİTEXNİK UNİVERSİTETİNDƏ

Mayın 22-26-da Xəzər Universiteti Neft mühəndisliyi departamentinin müəllimi Dr. Qriqori Penkov Erasmus+ İşçi heyətinin mübadiləsi proqramı (KA107) çərçivəsində İtaliyanın Torino Politexnik Universitetində keçirilmiş Beynəlxalq Mobillilik Həftəsində iştirak etmişdir.

Proqram təliminin keçirilməsində bir neçə məqsəd vardır: əsasən universitetlərdə proqram inklüzivliyinin və müxtəlifliyin əhəmiyyətini təqdim etmək; öz fəaliyyətlərinin keyfiyyət təsirini artırmaq və bərabər imkanları təmin etmək; daha az imkanları olan insanlara, o cümlədən əlillər, təhsildə çətinlik çəkənlər və ya miqrant mənşəli şəxslərə, eləcə də kənd və ucqar ərazilərdə yaşayanlara diqqət yetirmək; Torino Politexnik universitetində mövcud olan müxtəlif müəllim hazırlığı proqramlarını təqdim etmək.

Təlimdə Xəzər universiteti ilə bərabər müxtəlif ölkələrdən və universitetlərdən olan işçilər iştirak ediblər. Həmçinin, ev sahibi universitet tərəfindən PoliTO şəhərciyinə səfər və Torinoya gəzinti turu təşkil olunub.



*Qriqori Penkov*

## LECTURER OF PETROLEUM ENGINEERING DEPARTMENT AT POLYTECHNIC UNIVERSITY OF TORINO, ITALY

On May 22-26, Dr. Grigorii Penkov, the lecturer at Khazar University Petroleum Engineering Department, participated in the International Mobility Week held at Torino Polytechnic University of Italy within the Erasmus+ Staff Exchange Program (KA107).

The program training has several goals: mainly to introduce the importance of program inclusion and diversity in universities; to increase the quality impact of their activities and ensure equal opportunities; to focus on people with fewer opportunities, including those with disabilities, those with learning difficulties or those with a migrant background, as well as those living in rural and remote areas; to present the various teacher training programs available at the Polytechnic University of Torino.

Along with Khazar university, employees from different countries and universities participated in the training. Also, a visit to the PoliTO campus and a walking tour of Torino were organized by the host university.

## PİCASP LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ "MƏDƏNİ İRS SAHƏSİNDƏ ÖZ BİZNESİNİZƏ BAŞLAYIN" ADLI TƏLİM

## TRAINING "START YOUR OWN BUSINESS IN THE FIELD OF CULTURAL HERITAGE" WITHIN PICASP PROJECT





*Fariz Xəlili*

Mayın 30-31-də Xəzər Universitetində İnkişaf Mərkəzi və İqtisadiyyat və menecment fakültəsinin birgə təşkilatçılığı ilə "MİRAS" İctimai Birliyi tərəfindən "Mədəni irs sahəsində öz biznesinizə başlayın" adlı təlim keçirilmişdir.

Tədbir İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədovun çıxışı ilə başlamışdır. Təlimçi - "MİRAS" İctimai Birliyinin direktoru Fariz Xəlili tələbələrlə tanış olmuş, onların startap ideyalarını dinləmiş, biznes plan qurulmasında öz tövsiyələrini vermiş, sualları cavablandırmışdır.

2 gün davam edən təlim iştirakçılar tərəfindən maraqla qarşılanmışdır. Sonda tələbələrə sertifikat verilmişdir.

On May 30-31, a training entitled "Start your own business in the field of cultural heritage" was held by "MIRAS" Public Union with the joint organization of the Development Center and the School of Economics and Management at Khazar University.

The event started with the speech of Jeyhun Mammadov, Dean of the School of Economics and Management. The trainer - Fariz Khalili, the director of "MIRAS" Public Union, met the students, listened to their startup ideas, gave his recommendations for building a business plan, and answered questions.

The 2-day training was met with interest by the participants.

At the end, students were given certificates.

## XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI PORTUQALİYANIN BRAGANÇA POLİTEXNİK İNSTİTUTUNDA

## KHAZAR UNIVERSITY EMPLOYEES AT POLYTECHNIC INSTITUTE OF BRAGANÇA IN PORTUGAL

Mayın 29-dan iyunun 2-dək İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı İnqilab Əhmədov və Beynəlxalq əlaqələr ofisinin koordinatoru Fatimə Vəliyeva Erasmus+ İşçi heyətinin mübadiləsi proqramı (KA107) çərçivəsində Portuqaliyanın Bragança Politexnik İnstitutunda keçirilmiş Beynəlxalq Mobillilik Həftəsində iştirak etmişlər.

Proqramın ilk günü universitetin Akademik işlər və beynəlxalq əlaqələr üzrə prorektoru Luis Pais iştirakçılar ilə görüşdü və universitet haqqında təq-

From May 29 to June 2, dean of the Graduate School of Economics and Business, Inqilab Ahmadov, and coordinator of the International Relations Office, Fatima Valiyeva, participated in the International Mobility Week held at the Polytechnic Institute of Bragança in Portugal within the Erasmus+ Staff Exchange Program (KA107).

On the first day of the program, Luis Pais, vice-rector for Academic Affairs and international relations, met with the participants and presented



*Fatimə Vəliyeva, Bragança Politexnik İnstitutunun professorları Nuno Adriano, Baptista Ribeiro, Helder Gomes, İnqilab Əhmədov*

dimat nümayiş olundu. Həmçinin, ikili diplom proqramlarının məqsədləri, növbəti əməkdaşlıqlar müzakirə edildi.

Sonra universitetin fakültələri (Kənd Təsərrüfatı, Təhsil, Texnologiya və Menecment, Səhiyyə) ilə görüşlər keçirilidi və kitabxanalar ilə tanışlıq oldu.

Ümumilikdə tədbirdə təmsil olunan 18 ölkədən 59 iştirakçı qruplara bölünərək, tədqiqat yönümlü və ikili diplom proqramları ilə bağlı vörkşoplarda iştirak etdilər.

Həftədə iştirak edən universitet nümayəndələrinin Erasmus+ Tələbə Mübadilə Proqramı ilə hal-hazırda təhsil alan tələbələrlə görüşü təşkil olundu. Xəzər Universitetinin əməkdaşları universitetin İqtisadiyyat və menecment fakütəsinin ikili diplom proqramı ilə təhsil alan Nərminə Bağışova və Erasmus+ Mübadilə Proqramı çərçivəsindəTəbiət elmləri və mühəndislik fakültəsinin tələbəsi Fatimə İbrahimova ilə görüşərək, onların proqram haqqında fikirlərini dinlədilər. Proqram iştirakçılarının Bragança şəhərinə və qalasına ekskursiyası da təşkil olundu.

about the University. Also, the objectives of the dual diploma programs and further cooperation were discussed.

Then meetings were held with the faculties of the university (Agriculture, Education, Technology and Management, Health) and there was an introduction to the libraries.

In total, 59 participants from 18 countries represented at the event were divided into groups and participated in workshops related to research-oriented and double degree programs. A meeting of university representatives participating in the week with students currently studying with the Erasmus+ Student Exchange Program was organized.

The employees of Khazar University met with Narmina Bagishova, who is studying in the dual diploma program of the university's School of Economics and Management, and Fatima Ibrahimova, a student of the School of Science and Engineering within the framework of the Erasmus+ Exchange Program, and were interested in their impressions. An excursion to the city and castle of Bragança was also organized for the program participants.




*Vlad Vernygora*

# "XƏZƏR"İN PROREKTORU HÜQUQ ÜZRƏ QONAQ PROFESSOR VƏZİFƏSİNƏ TƏYİN OLUNUB

Xəzər Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru və Asiya-Sakit Okean və Afrika Tədqiqatları İnstitutunun/IAPAS-ın direktoru Vlad Vernygora yenicə Kiqali/UNILAK (Ruanda) Lay Adventistlər Universitetində hüquq üzrə qonaq professor vəzifəsinə təyin edilib.

UNILAK-ın vitse-kansleri professor Jean Ngamije tərəfindən imzalanmış 6 iyun 2023-cü il tarixli rəsmi məktubda bildirilir ki, qonaq professorluq "tanınmış akademik və peşəkar mövqeyə malik görkəmli şəxslərə verilir".

Bu təyinat həm Xəzər Universiteti, həm IAPAS, həm də əməkdaşlığa cəlb olunmuş bütün tərəflər üçün Afrika və Asiya-Sakit Okean ölkələri ilə sıx əlaqədə olmaq baxımından əlamətdar addımdır.

Bu kontekstdə Xəzər Universiteti və UNILAK geniş coğrafi əhatəyə, tədqiqat mükəmməlliyinə, hər yerdə dayanıqlı inkişafa diqqət yetirməyin, qarşılıqlı hörmət və akademik etikaya, ünsiyyətdə pozitivliyə riayət etməyin və ortaq rolun dərk edilməsinin vacibliyini vurğulamaq istəyirlər.

Prorektor Vernugora`nın yüksək səviyyəli təyinatı 2023-cü ilin iyunundan 2026-cı ilin dekabrına qədər olan dövr üçün nəzərdə tutulub.

# KHAZAR UNIVERSITY VICE-RECTOR APPOINTED AS A VISITING PROFESSOR ON LAW

Vlad Vernygora, vice-rector for International Relations of Khazar University and Director of the Institute of Asia-Pacific and African Studies/IAPAS, has just been appointed visiting professor of law at the University of Lay Adventists of Kigali /UNILAK (Rwanda).

An official letter dated June 6, 2023, signed by UNILAK vice-chancellor Professor Jean Ngamije, states that the visiting professorship is "awarded to eminent persons of recognized academic and professional standing".

This appointment is a significant step for both Khazar University, IAPAS and all parties involved in the cooperation in terms of close contact with African and Asia-Pacific countries.

In this context, Khazar University and UNILAK want to emphasize the importance of focusing on wide geographical coverage, research excellence, sustainable development everywhere, mutual respect and academic ethics, positivity in communication, and understanding of the shared role.

Vice-rector Vernygora's high-level appointment is scheduled for the period from June 2023 to December 2026.

## DEPARTAMENT MÜDİRLƏRİ ARB24 TELEKANALINDA

## DEPARTMENT HEADS ON ARB24 TV CHANNEL

* * *

Tarix və arxeologiya departamentinin müdiri Dr. Telman Nüsrətoğlu 2023-cü il mayın 23-də ARB24-ün "Gündəm" verilişində Ermənistan baş naziri Paşinyanın "Qarabağ Azərbaycan torpağıdır" bəyanatını səsləndirdikdən sonra Ermənistan daxili siyasətində baş verənləri, revanşist qüvvələrin fəallaşması və sülh sazişinin imzalanması ehtimalı ilə bağlı fikirlərini tamaşaçılarla bölüşmüşdür.

On May 23, 2023 Head of History and Archeology Department Dr. Telman Nusratoghlu shared his views with the audience on the events in Armenia's internal politics, the activation of revanchist forces, and the possibility of signing a peace agreement, after announcing Armenian Prime Minister Pashinyan's statement "Karabakh is Azerbaijani land" on the "Agenda" program of ARB24.

* * *

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev 2023-cü il mayın 23-ü və 24-də ARB24 TV-nin "İş Vaxtı" və "İşgüzar Səhər" pqoqramlarına onlayn bağlantı ilə qoşularaq, Azərbaycanla Ermənistan arasında sülh danışıqları ilə bağlı son dəyişikliklər çərçivəsində fikirlərini açıqlamışdır.

On May 23 and 24, 2023, Dr. Orkhan Valiyev, Head of the Department of Political Sciences and Philosophy, joined ARB24 TV's "Business Time" and "Business Morning" programs online, and expressed his views on the recent changes in the peace negotiations between Azerbaijan and Armenia.

*https://www.youtube.com/watch?v=fAFZcQnapw8&t=1s*
*https://www.youtube.com/watch?v=jH_TVrTdbrw*

* * *

Tarix və arxeologiya departamentin müdiri Dr. Telman Nüsrətoğlu 2023-cü il mayın 31-də ARB24 televizyasında Azərbaycan və Ermənistan liderlərinin Avropa İttifaqının təşəbbüsü ilə Kişineuda keçiriləcək növbəti görüşündən gözləntiləri, sülh sazişinin imzalanma ehtimalını şərh etmişdir.

On May 31, the head of History and Archeology Department, Dr.Telman Nusratoghlu, commented on the expectations of the next meeting of the leaders of Azerbaijan and Armenia to be held in Chisinau at the initiative of the European Union, and the possibility of signing a peace agreement on arb24 television, .

* * *

2023-cü il iyunun 6-da Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev ARB24 internet televiziyasının "Gündəm" proqramında iştirak etmişdir. O, proqramda Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar`ın Ermənistana səfəri ilə bağlı və Azərbaycanla Ermənistan arasında sülh danışıqlarına dair fikirlərini bölüşmüşdür.

On June 6, 2023, the head of the Department of Political Sciences and Philosophy of Dr. Orkhan Valiyev participated in the "Agenda" program of ARB24 internet television. In the program, he shared his views on the visit of Toivo Klaar, the special representative of the European Union for the South Caucasus, to Armenia and the peace negotiations between Azerbaijan and Armenia.

* * *

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev 2023-cü il iyunun 15-də ARB24 TV-nin canlı yayımında iştirak edərək, imzalanmasının iki ili tamam olan "Şuşa Bəyənnaməsi"nin Azərbaycan-Türkiyə münasibətlərinə töhfəsi, Azərbaycanın təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətinə dair fikirlərini bölüşmüşdür.

On June 15, 2023,the head of the Department of Political Sciences and Pphilosophy, Dr. Orkhan Valiyev, participated in the live broadcast of Arb24 TV and shared his views on the contribution of the "Shusha Declaration", which was signed two years ago, to Azerbaijan-Türkiye relations and its importance in ensuring the security of Azerbaijan.

https://www.youtube.com/@YeniTV/streams



# İSPANİYALI EKSTREMAL İDMAN HƏVƏSKARI 500 GÜN MAĞARADA QALIB

İspaniyalı 50 yaşlı qadın, ekstremal idman növü ilə məşğul olan Beatris Flamini insanlarla əlaqə saxlamadan 500 gün qaldığı mağaradan çıxıb.

AZƏRTAC BBC telekanalına istinadla xəbər verir ki, bu, yeni dünya rekordu ola bilər. İl yarım öncə 48 yaşı olan idmançı bütün dünyanın koronavirus pandemiyasından əziyyət çəkdiyi vaxtlarda Qranada şəhəri yaxınlığındakı mağaraya enib. Bu, alimlərin diqqətlə izlədiyi eksperimentin bir hissəsi idi.

"Mən hələ 2021-ci il noyabrın 21-də qalmışam. Ötən müddət ərzində dünyada nələrin baş verdiyindən xəbərsizəm", - Beatris Flamini mağaradan çıxarkən belə deyib.

O, 70 metr dərinliyi olan mağarada keçirdiyi 500 gün ərzində rəsmlər çəkib, papaqlar toxuyub, 60 kitab oxuyub və idmanla məşğul olub. Susub və yalnız öz-özü ilə danışıb.

Psixoloqlar, həkimlər və speleoloqlar idmançını məsafədən izləyiblər, lakin heç kim onunla birbaşa əlaqə qurmayıb. Alimlər bu eksperimentdən sosial izolyasiyanın və müvəqqəti zaman disoriyentasiyasının insanlar üzərində təsirini öyrənmək üçün istifadə ediblər.

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. http://e.dunyaschool.az/sagirdqebulu

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

# XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

## NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

### TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

**650-700 bal - təhsil haqqından tam azad edilir**
**600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir**
**550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir**
**500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir**
**450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir**
**400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir**
**350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir**

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informasiya müəllimliyi
- Fizika müəllimliyi
- Memarlıq

### 2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

### 5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi